QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 052 (5524) 20 **mart** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**




# "Azərbaycan Novruzu gözəl nəticələrlə qarşılayır"

*Prezident İlham Əliyev Novruz bayramı münasibətilə ümumxalq şənliyində iştirak edib*



Səh 2

**Xalqımız Cənab İlham Əliyevi növbəti dəfə Prezident görmək istəyir**



6

**Bakıda prezident seçkilərində KİV-lərin rol və vəzifələrinə həsr edilən seminar-müşavirə keçirilib**



4

**Əli Əhmədov: "Seçkilərin şəffaf keçiriləcəyinə əminəm"**



5

**YAP prezident seçkiləri ilə bağlı sayt yaradıb**



5

**YAP-ın Mərkəzi Seçki Qərargahında yüksək seçki əhval - ruhiyyəsi hökm sürür**



5

5

**Bakıda möhtəşəm atəşfəşanlıq keçirilib**



11

**Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyev seçkilərdə növbəti dəfə parlaq qələbə qazanacaq**



16

**Taekvondoçularımız "Ukrayna Open" beynəlxalq turnirində 10 medal qazanıblar**



# "Azərbaycan Novruzu gözəl nəticələrlə qarşılayır"

## *Prezident İlham Əliyev Novruz bayramı münasibətilə ümumxalq şənliyində iştirak edib*

***Martın 19-da Bakıda Azərbaycan xalqının milli bayramı - Novruz münasibətilə ümumxalq şənliyi keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Novruz şənliyində iştirak ediblər. Dövlətimizin başçısı və xanımı əvvəlcə Qız qalasının qarşısındakı meydana gəldilər.***



Milli geyimli uşaqlar meydanda rəqs edirdilər. İncəsənət ustalarının baharı, Azərbaycanı tərənnüm edən mahnılarının sədaları ətrafa yayılır, bayram şənliyinin iştirakçılarında xoş ovqat doğururdu. Bahar qız dövlətimizin başçısına səməni təqdim etdi. İçərişəhərin qala divarları üstündə və meydanda qədim tariximizi xatırladan qılınc və qalxanlı döyüşçülər dayanmışdılar. Ulu Dədə Qorqud xeyir-dua verərək, Novruz bayramının xalqımıza ruzi-bərəkət gətirməsini arzuladı.

Prezident İlham Əliyev Novruz tonqalını alovlandırdı. Dövlətimizin başçısı bayram şənliyində nitq söyləyib. Azərbaycan Prezidenti İlham Əliyev öz nitqində qeyd edib ki, əsrlər boyu Azərbaycan xalqı bu bayramı qeyd edir, öz qəlbində yaşadır:

"Milli-mənəvi dəyərlərimiz müasir Azərbaycan dövlətinin əsas dayağıdır. Azərbaycan dövləti müasir dövlətdir, ancaq, eyni zamanda, bizim dövlətimiz dərin milli-mənəvi dəyərlər, köklər üzərində qurulubdur. Elə etməliyik ki, gənc nəsil də milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə alsın. Onlar da bizim kimi Vətənə bağlı olsunlar, milli maraqlarımızı hər şeydən üstün tutsunlar.

Azərbaycan Novruzu gözəl nəticələrlə qarşılayır. Ölkəmiz hərtərəfli inkişaf edir. Aparılan quruculuq işləri ölkəmizi gücləndirir, Azərbaycanın beynəlxalq nüfuzunu artırır. Daxili vəziyyət sabitdir. Bu sabitliyin əsas təminatçısı Azərbaycan xalqıdır. Xalq-iqtidar vəhdəti sabitliyin əsas təminatçısıdır. Daxili siyasətlə bağlı görülən işlər, aparılan islahatlar öz gözəl nəticələrini verməkdədir. Dünyada gedən proseslər bir daha onu göstərir ki, ancaq sabit olan ölkələr uğurla inkişaf edə bilər. Ancaq sabit olan ölkələrə xarici sərmayə qoyulur, insanlar rahat, təhlükəsizlik şəraitində yaşayırlar. Bu gün dünyanın müxtəlif yerlərində sabitlik pozulur, qanlı toqquşmalar baş verir, müharibələr alovlanır, yeni risklər yaranır. Bu gün dünya gündəliyinin əsas məsələsi məhz təhlükəsizlik məsələləridir. Azərbaycan bu istiqamətdə apardığı siyasətlə dünyada böyük rəğbət qazanmış ölkələrdən biridir. Ölkəmizdə daxili risklər üçün heç bir mənbə yoxdur. Xarici risklərdən isə biz özümüzü qoruyuruq və bundan sonra da qoruyacağıq, Azərbaycan xalqının rahat yaşamasını təmin edəcəyik."



Dövlət başçısı qeyd edib ki, ölkəmizin beynəlxalq əlaqələrimiz genişlənir. Bu gün Azərbaycan dünya miqyasında çox yüksək reputasiyaya malik olan bir ölkədir və bizim təşəbbüslərimiz regional əməkdaşlığa təkan verir:

"Bir neçə gün bundan əvvəl VI Qlobal Bakı Forumu keçirilmişdir. Bu forumda 50-dən çox ölkədən 50-yə yaxın fəaliyyətdə olan və sabiq dövlət və hökumət başçısı iştirak etmişdir. Deyə bilərəm ki, Qlobal Bakı Forumu dünyada keçirilən ən mötəbər forumların arasında qısa müddət ərzində özünəlayiq yer tuta bilmişdir. Bu gün Bakı Forumunda müzakirə olunan məsələlər hesab edirəm ki, dünya üçün çox əhəmiyyətlidir. Gələn ay Bakıda Qoşulmama Hərəkatının xarici işlər nazirlərinin konfransı keçiriləcəkdir. Bu da qlobal, mötəbər beynəlxalq tədbirdir. Bu tədbirin Azərbaycanda keçirilməsi Qoşulmama Hərəkatı və təşkilata üzv ölkələr tərəfindən bizə verilən növbəti dəstəyin təzahürüdür.



Azərbaycan regional əməkdaşlıq məsələlərində bir çox hallarda təşəbbüskar kimi çıxış edir. Bir neçə gün bundan əvvəl tarixdə ilk dəfə olaraq Bakıda Azərbaycan, İran, Gürcüstan və Türkiyənin xarici işlər nazirlərinin birinci görüşü keçirilmişdir. Hesab edirəm ki, bu, tarixi hadisədir, tarixi görüşdür. Bundan əvvəlki dövrlərdə yenə də bizim təşəbbüsümüzlə bir neçə regional format yaranmış və uğurla fəaliyyət göstərir. Azərbaycan-İran-Gürcüstan, Azərbaycan-İran-Türkiyə, Azərbaycan-Gürcüstan-Türkiyə, Azərbaycan-İran-Rusiya üçtərəfli və nəhayət Azərbaycan-İran-Gürcüstan-Türkiyə dördtərəfli formatlar yaranmışdır. Qeyd etməliyəm ki, bütün bu çoxtərəfli formatların təşəbbüskarı Azərbaycan olmuşdur. Bu, bölgədə sabitliyi möhkəmləndirir, əməkdaşlığı gücləndirir və bu formatlarda iştirak edən ölkələrin iqtisadi maraqlarını təmin edir. Müzakirə olunan məsələlər siyasi, iqtisadi, mədəni, nəqliyyat və digər sahələri əhatə edir. Bildiyiniz kimi, bizim təşəbbüsümüzlə regionda çox böyük nəqliyyat layihələri icra edilir. Şərq-Qərb nəqliyyat marşrutu artıq reallaşıb. Keçən il Bakı-Tbilisi-Qars dəmir yolunun açılmasından sonra artıq bu marşrut fəaliyyətdədir. Yaxın gələcəkdə Ələtdəki Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tam gücü ilə işləməsi nəticəsində Azərbaycan ərazisindən keçən yüklərin həcmi bir neçə dəfə artacaqdır. Hazırda biz Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılması ilə məşğuluq. Azərbaycan ərazisində bu marşrutla bağlı bütün işlər görülübdür. Eyni zamanda, Azərbaycan bu marşrutun tam həyata keçirilməsi üçün əlavə tədbirlər görəcəkdir. Həmçinin bu iki önəmli nəqliyyat dəhlizi yeni təşəbbüslərlə çıxış etmək üçün bizə imkan yaratdı və Bakıda dörd ölkənin xarici işlər nazirlərinin görüşündə, eyni zamanda, Cənub-Qərb nəqliyyat marşrutu müzakirə edildi. İlk dəfə olaraq, yenə də bizim təşəbbüsümüzlə. Beləliklə, baxmayaraq ki, Azərbaycanın açıq dənizlərə çıxışı yoxdur, biz Avrasiyanın önəmli nəqliyyat mərkəzinə çevriləcəyik və bu istiqamətdə artıq gözəl nəticələr var.

Biz digər beynəlxalq təşkilatlarla, Avropa İttifaqı ilə fəal əməkdaşlıq aparırıq. Azərbaycan İslam Əməkdaşlıq Təşkilatının fəal üzvüdür. Bu gözəl mənzərə fonunda Ermənistan bütün regional əməkdaşlıq formatlarından tamamilə kənarda qalıbdır. Bu da təbiidir. Çünki bizim siyasətimiz məhz bundan ibarətdir. Ermənistan bütün məsələlərdən təcrid olunmuş vəziyyətdədir, bir dənə də olsun regional əməkdaşlıq formatında iştirak etmir. Təkcə ona görə yox ki, biz buna imkan vermirik, - halbuki, hesab edirəm, bu, əsas amildir, - eyni zamanda, ona görə ki, Ermənistan nə siyasi, nə iqtisadi, nə nəqliyyat baxımından heç bir maraq doğurmur.

**Ardı Səh. 3**

# "Azərbaycan Novruzu gözəl nəticələrlə qarşılayır"

## *Prezident İlham Əliyev Novruz bayramı münasibətilə ümumxalq şənliyində iştirak edib*

**Əvvəli Səh. 2**

Siyasi baxımdan bu ölkə müstəqil deyil, bu, satellit ölkədir. Ermənistanın gələcəyi ilə bağlı ölkə daxilində qəbul edilmiş qərarlar böyük məna daşımır. Bu ölkəyə iqtisadi cəhətdən heç bir investisiya qoyulmur, investorlar maraqlı deyillər. Burada bir neçə amil rol oynayır, birinci növbədə, baş alıb gedən rüşvətxorluq, oğurluq, korrupsiya halları, digər tərəfdən vətəndaşların kütləvi surətdə Ermənistandan çıxması, yəni, köç kütləvi xarakter alıbdır. İnvestisiya iqlimi çox bərbaddır və bazar məhdudluğu imkan vermir ki, bu ölkəyə investisiya qoyulsun.

Belə bir mənzərə ilə üzləşən Ermənistan xalqı bir daha çox ciddi fikirləşməlidir və anlamalıdır ki, Ermənistan rəhbərliyinin Azərbaycana qarşı işğalçı siyasətinin gələcəyi yoxdur. Azərbaycan öz ərazi bütövlüyünü onsuz da bərpa edəcəkdir. Ancaq Ermənistan son illər ərzində bölgədə gedən regional əməkdaşlıq proseslərindən tam təcrid olunmuş vəziyyətdədir. Onlar siyasi səhnədə məğlub olublar, bütün aparıcı beynəlxalq təşkilatlar Azərbaycanın mövqeyini dəstəkləyir. BMT, onun Təhlükəsizlik Şurası, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, AŞPA, digər təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmasını tələb edən çoxsaylı qərar və qətnamələr qəbul etmişlər. Yəni, bu, Ermənistanın siyasi məğlubiyyətidir. Onlar diplomatik cəbhədə məğlubiyyətə uğrayıblar. Dağlıq Qarabağda keçirilmiş qondarma "referendum" heç bir ölkə tərəfindən tanınmayıb, beynəlxalq təşkilatlar da bunu tanımayıblar. Bu, bir daha təsdiqləyir ki, Dağlıq Qarabağ Azərbaycanın torpağıdır, Azərbaycanın əzəli torpağıdır və Azərbaycanın ayrılmaz hissəsidir. Nəqliyyat siyasəti ilə bağlı Ermənistan dalan ölkədir və açıq deməliyik ki, bunu biz etmişik.

İki il bundan əvvəl Ermənistan döyüş meydanında üzləşdiyi məğlubiyyətdən bu günə qədər də özünə gələ bilmir. Bu gün Azərbaycan bayrağı Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının vaxtilə işğal altında olan torpaqlarında dalğalanır. Gün gələcək ki, bizim bayrağımız Şuşada və Xankəndidə dalğalanacaqdır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ancaq və ancaq ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapa bilər. Bunun başqa yolu yoxdur. Dəfələrlə demişəm, bir daha deməк istəyirəm, bunu hamı bilsin ki, Azərbaycan heç vaxt imkan verə bilməz ki, bizim tarixi torpaqlarımızda ikinci erməni dövləti yaradılsın. Dəfələrlə demişəm və bir daha demək istəyirəm ki, bugünkü Ermənistanın ərazisi tarixi Azərbaycan torpaqlarıdır. Bunu təsdiqləyən çoxsaylı kitablar, xəritələr var. O xəritələrdə indiki Ermənistanın ərazisindəki toponimlərin mütləq əksəriyyəti Azərbaycan mənşəlidir. Tarixi kitablarda göstərilir ki, XIX əsrin əvvəllərində İrəvan xanlığının əhalisinin




mütləq əksəriyyəti, daha doğrusu 80 faizi azərbaycanlılar olub. Bu, tarixdir, tarixi həqiqətdir. Bunu bilməyənlər də bilsinlər və ən önəmlisi Azərbaycan gəncləri bunu bilsinlər. Bilsinlər ki, indiki Ermənistanın böyük hissəsi Azərbaycanın tarixi torpağıdır. Biz bunu heç vaxt unutmuruq və unutmayacağıq."

Prezident İlham Əliyev bildirib ki, Azərbaycan iqtisadi sahədə də böyük uğurlara imza atıb. Prezident qeyd edib ki, biz bu bayramı gözəl iqtisadi nəticələrlə qarşılayırıq:

"İki ayda ümumi daxili məhsul 1,3 faiz, qeyri-neft sektorunda isə 2,3 faiz artmışdır. Sənaye istehsalı 1,4 faiz, qeyri-neft sektorunda isə 8,4 faiz artmışdır. Kənd təsərrüfatı məhsullarının istehsalı təxminən 4 faiz, əhalinin gəlirləri isə 10,2 faiz artmışdır. İnflyasiya 4,7 faizdir. Yəni, bizim nəzərdə tutduğumuz vəzifələr icra edilir. İki ayda valyuta ehtiyatlarımız 2,1 milyard dollar artmışdır və hazırda 44 milyard dollara bərabərdir. Bu, böyük rəqəmdir. Biz valyuta ehtiyatlarımızı il ərzində daha da artıracağıq. Manatın məzənnəsi sabitdir. Bütün infrastruktur layihələri uğurla icra edilir. Bir sözlə, son müddət ərzində iqtisadi siyasətlə bağlı aparılan ciddi islahatlar öz gözəl nəticələrini vermişdir. Biz bu islahatları dərinləşdirəcəyik, bundan sonra da aparacağıq və Azərbaycan iqtisadiyyatının dayanıqlılığını bundan sonra da təmin edəcəyik.

Regionlarda böyük abadlıq-quruculuq işləri görülür. Bu il icra edilən Dövlət İnvestisiya Proqramı imkan verəcək ki, bölgələrdə bir çox məsələlər öz həllini tapsın. Sosial infrastruktur, məktəblər, xəstəxanalar, idman kompleksləri, yollar, digər infrastruktur layihələri. Keçən il 500 kəndin yolu salınmışdır, bu il ən azı 600-dən çox kəndin yolu salınacaqdır. Rayonlarımızın siması gözəlləşir, abadlaşır.

Artıq bu, həqiqətdir, Bakı dünyanın ən gözəl şəhərlərindən birinə çevrilibdir. Bakıya gələn hər bir qonaq bunu qeyd edir. Bu gün Bakı doğrudan da, gözəlliyi, tarixi, insanların qonaqpərvərliyi baxımından turistlər üçün ən cəlbedici istiqamətlərdən birinə çevrilibdir. Ölkəmizə gələn turistlərin artan sayı bunun gözəl sübutudur. Gələn qonaqların sayı 2016-cı ildə 24 faiz, 2017-ci ildə 20 faiz, bu ilin iki ayında isə 12 faiz artmışdır. Hər bir gələn qonaq əlbəttə ki, Bakının gözəlliyini etiraf edir, bunu görür, sonra sosial şəbəkələrdə öz çəkdiyi kadrları paylaşır. Bakı bizim qürur mənbəyimizdir, bizim tarixi şəhərimizdir, qədimliyi ilə müasirliyi özündə birləşdirən nadir şəhərlərdən biridir. Bakının inkişafı, gözəlləşdirilməsi, müasir infrastrukturunun yaradılması üçün bundan sonra da əlavə tədbirlər görüləcəkdir.

Bakının ekoloji vəziyyəti yaxşılaşır. Vaxtilə şəhərimizin havasını çirkləndirən Balaxanı zibilxanası tamamilə aradan götürülübdür, indi park salınıbdır. Böyükşor gölü. Onun bir hissəsi, birinci mərhələsi tamamlanıb və təmizlənib. Bibiheybət buruqları ekoloji fəlakət mənzərəsi idi. Bu gün orada park, idman şəhərciyi salınıb. Bakının o hissəsi ilə bağlı bizim əlavə planlarımız var. Yeni yollar salınıb. Vaxtilə tikilmiş və yararsız vəziyyətə düşmüş binalar sökülür, vətəndaşlara kompensasiya ödənilir və həmin binaların yerində yeni ictimai zonalar yaradılır. Yəni, Bakının gələcək inkişafı ilə bağlı bizim böyük planlarımız var. Bakının nəqliyyat problemləri də həll olunur. Bakıda onlarla körpü, yol qovşağı tikilmişdir. Əgər vaxtilə tikilməsəydi, biz indi tıxacdan hərəkət edə bilməzdik. Şəhərimizin gələcək hərtərəfli inkişaf planı da diqqət mərkəzindədir. Şəhərimizin hər bir yerində abadlıq işləri getməlidir və əminəm ki, gedəcəkdir.

Əziz dostlar, bir daha demək istəyirəm ki, biz bu gözəl bayramı gözəl nəticələrlə, yaxşı əhval-ruhiyyə ilə qarşılayırıq. Əminəm ki, 2018-ci il də, ondan sonrakı illər də ölkəmiz üçün uğurlu olacaq. Azərbaycan uğurla inkişaf edəcək, qarşıda duran bütün vəzifələr icra ediləcək və ölkəmiz bundan sonra da bir çox ölkələr üçün nümunə olacaqdır.

Sizi və bütün Azərbaycan xalqını qarşıdan gələn gözəl bayram münasibətilə bir daha təbrik edirəm, bütün Azərbaycan xalqına uğurlar, cansağlığı, əmin-amanlıq və sülh arzulayıram. Sağ olun."

X X X

Sonra Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Dənizkənarı Milli Parka gəldilər.

Dövlətimizin başçısını və xanımını Novruz bayramının əsas personajları olan Kosa və Keçəl qarşıladılar. Kosa və Keçəl Prezidenti və xanımını bayram münasibətilə təbrik etdilər, dövlətimizin başçısı ilə yumurta döyüşdürdülər. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bayram konsertinə baxdılar.

# "Azərbaycan ilə OPEC arasında əməkdaşlıq uğurla inkişaf edir"

## *Prezident İlham Əliyev OPEC-in baş katibi ilə görüşüb*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 18-də Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) baş katibi Məhəmməd Barkindo ilə görüşüb. AZƏRTAC xəbər verir ki, OPEC-in baş katibi Məhəmməd Barkindo səfərə dəvətə görə minnətdarlığını bildirdi və Azərbaycan Respublikasının Prezidenti ilə görüşündən məmnunluğunu ifadə etdi. Prezident İlham Əliyev Məhəmməd Barkindo ilə Davosda görüşünü məmnunluqla xatırlayaraq qeyd etdi ki, OPEC-in baş katibinin dünyada ilk dəfə neftin hasil olunduğu Azərbaycana səfəri böyük önəm daşıyır.***



Məhəmməd Barkindo xoş sözlərə görə minnətdarlığını bildirərək Azərbaycanın neft sənayesinin beşiyi olduğunu vurğuladı və dedi ki, hər bir neftçi gəlib öz gözləri ilə Bakını görməlidir. Dövlətimizin başçısı İlham Əliyev Məhəmməd Barkindonun səfərinin Azərbaycanın tarixi yerləri və müasir inkişafı ilə tanış olmaq üçün yaxşı imkan yaratdığını dedi. Prezident İlham Əliyev Azərbaycan ilə OPEC arasında əməkdaşlığın uğurla inkişaf etdiyini bildirdi və ölkəmizin hasilatla bağlı üzərinə düşən öhdəlikləri tam şəkildə yerinə yetirdiyini vurğuladı. Dövlətimizin başçısı neftin qiymətinin sabit saxlanması istiqamətində Məhəmməd Barkindonun və OPEC-in səmərəli, həmçinin koordinə edilmiş səylərini yüksək qiymətləndirdi, bunu, eyni zamanda, birgə fəaliyyətin yaxşı nəticəsi kimi dəyərləndirdi.

Məhəmməd Barkindo OPEC və qeyri-OPEC üzvlərinin bir araya gəlməsində Prezident İlham Əliyevin rolunu xüsusi qeyd etdi, Azərbaycanın OPEC və qeyri-OPEC üzvlərinin əməkdaşlığı üzrə bəyanatın formalaşmasına gətirib çıxaran yüksək səviyyəli texniki komitəyə həmsədrliyini yüksək qiymətləndirdi. Ölkəmizin üzərinə düşən bütün öhdəlikləri tam şəkildə yerinə yetirdiyini deyən qonaq bunun Azərbaycanın bu razılaşmaya nə dərəcə sadiq qaldığının göstəricisi olduğunu bildirdi. Qeyd etdi ki, bu, təkcə neft hasil edən yox, hətta istehlakçı ölkələrin marağındadır. Bu işin nəticələrini artıq neft sənayesində və dünya bazarlarında görmək mümkündür. Söhbət zamanı əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı. Sonda xatirə şəkli çəkildi.

# Bakıda prezident seçkilərində KİV-lərin rol və vəzifələrinə həsr edilən seminar-müşavirə keçirilib



***Martın 19-da Bakıda Azərbaycan Respublikası Prezidenti seçkilərində kütləvi informasiya vasitələrinin rol və vəzifələrinə həsr edilən seminar-müşavirə keçirilib. AZƏRTAC xəbər verir ki, seminar-müşavirə Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Mərkəzi Seçki Komissiyası (MSK), Milli Televiziya və Radio Şurası və Mətbuat Şurası tərəfindən birgə təşkil olunub.***

Tədbirdə yuxarıda adları qeyd olunan qurumların nümayəndələri, kütləvi informasiya vasitələrinin rəhbərləri, jurnalistlər, fəal sosial şəbəkə istifadəçiləri, bloqqerlər, beynəlxalq təşkilatların təmsilçiləri iştirak ediblər.

Seminar-müşavirəni açan MSK sədri Məzahir Pənahov deyib ki, seçki prosesi ilə bağlı məlumatların ictimaiyyətə düzgün çatdırılması çox vacib məsələdir. Bu işdə kütləvi informasiya vasitələrinin üzərinə böyük vəzifə düşür. Azərbaycanda kütləvi informasiya vasitələri seçkilərlə bağlı kifayət qədər təcrübə toplayıb, jurnalistlər peşəkarlaşıblar. Mərkəzi Seçki Komissiyası da media ilə birgə işləməyə hər zaman xüsusi diqqət göstərir.

MSK sədri prezident seçkilərində səsvermənin 5600-dən artıq məntəqədə keçiriləcəyini söyləyib. O deyib ki, ümumi seçici siyahısına daxil edilmiş seçicilərin sayı 5 milyon 300 mindən çoxdur. Artıq kifayət qədər beynəlxalq müşahidəçi qeydiyyata alınıb. Onların arasında ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun uzunmüddətli müşahidəçiləri də var. Bürонun 280 qısamüddətli müşahidəçisi səsverməyə bir neçə gün qalmış Azərbaycana gələcək. Eyni zamanda, 1000 seçki məntəqəsində veb-kameralar quraşdırılıb. Veb-kameralar seçkilərin şəffaf təşkili baxımından çox böyük əhəmiyyət kəsb edir. Bu, o deməkdir ki, dünyanın istənilən nöqtəsində Azərbaycandakı seçki məntəqələrinin 20 faizində seçki prosesini izləmək mümkün olacaq. Əminik ki, bu praktika əvvəlki seçkilərdə olduğu kimi, 11 aprel prezident seçkilərində də özünü yüksək səviyyədə doğruldacaq. Bütün bunlar siyasi iradənin təzahürüdür. İstənilən demokratik ölkədə şəffaf seçkinin keçirilməsi üçün qanunvericilik bazası ilə, atılan addımlarla yanaşı, siyasi irada də vacib şərtdir.

Azərbaycanın kütləvi informasiya vasitələri indiyə qədər öz işlərinin öhdəsindən layiqincə gəlib. İnanıram ki, bu seçkilər zamanı da jurnalistlər özlərini xalqına xidmət edən bir qurumun nümayəndələri kimi hiss edəcəklər. Azərbaycanda seçki ilə bağlı əldə olunan nailiyyətlərdə KİV-lərin böyük rolu var.

Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov seminar-müşavirədə çıxış edərək deyib ki, ölkəmizdə keçirilən seçkilərin bütün mərhələlərində kütləvi informasiya vasitələri mühüm rol oynayır. Hər bir seçki üç mərhələdən ibarətdir: təşviqataqədərki mərhələ, təşviqat dövrü və bilavasitə səsvermənin başlanması, keçirilməsi və nəticələrin elan olunması. Hər bir dövr üçün Seçki Məcəlləsində kütləvi informasiya vasitələrinin rolu, vəzifələri, məsuliyyəti göstərilir. Bu seminar-müşavirədə Seçki Məcəlləsinin tələbləri, onun müəyyən etdiyi məsuliyyət diqqətə çatdırılacaq.

Əli Həsənov qeyd edib ki, bu gündən Azərbaycan cəmiyyətində seçki ilə bağlı mühüm obyekt və subyektlər var. Birincisi, namizədlər və onun platformasıdır. Hər bir namizəd öz proqram və hədəflərini, fikir və mülahizələrini ictimaiyyətə kütləvi informasiya vasitələri ilə çatdırmalıdır. Namizədlər televiziyada debatlar keçirəcək, bölgələrdə seçicilərlə görüşəcək, ancaq həmin məkana bir qrup insan yığışacaq və bütövlükdə, görüşün nəticələrini yenə də ictimaiyyətə mətbuat çatdıracaq. Bu baxımdan, KİV-lərin rolu prezident seçkilərində iştirak edən namizədlərin roluna bərabərdir. KİV-lər bütün namizədlər üçün bərabər şərait yaratmalıdır.

Prezidentin köməkçisi qeyd edib ki, Seçki Məcəlləsində media nümayəndələrinin vəzifələri müəyyən olunur. Əsas vəzifə bu işi peşəkarcasına, Məcəllənin tələblərinə uyğun yerinə yetirməkdir. Media nümayəndələrinin bu işi həyata keçirməsindən asılı olaraq seçkilərin imici formalaşacaq. Seçkilər mühüm ümumxalq tədbiridir və KİV-lər bu məsələdə çox məsuliyyətli olmalıdır. Kütləvi informasiya vasitələri diqqətli olmalıdır ki, Seçki Məcəlləsinin müddəaları pozulmasın. Çünki Məcəllənin hansısa tələbinə riayət etməmək seçkilərin ümumi imicinə xələl gətirə bilər.

Əli Həsənov vurğulayıb ki, KİV-lər Prezidentin dövlət başçısı kimi cari fəaliyyəti ilə seçkilərdə namizəd kimi təşviqat fəaliyyəti arasında fərqi düzgün müəyyən etməli, diqqətli olmalıdırlar. Prezidentin köməkçisi əlavə edib ki, kommersiya məsələsində də namizədlər üçün bərabər şərait yaradılmalıdır. Bu məsələdə də Seçki Məcəlləsinin tələblərinə əməl olunmalıdır.

Milli Televiziya və Radio Şurasının sədri Nuşirəvan Məhərrəmov deyib ki, Azərbaycan üçün çox mühüm ictimai-siyasi hadisə olan prezident seçkilərinin yüksək peşəkarlıqla keçirilməsində həm dövlət qurumlarının, həm də vətəndaş cəmiyyətinin üzərinə böyük iş düşür. Bu işdə ön sırada media nümayəndələri dururlar. Seçki prosesində kütləvi informasiya vasitələri məsuliyyətli vəzifə daşıyırlar. Cəmiyyətin düzgün istiqamətə yönləndirilməsində media böyük rol oynanır. Ölkəmizdə medianın fəaliyyəti üçün normal mexanizmlər müəyyənləşib. Seçki qanunvericiliyi bizdən öz işimizdə məsuliyyətli olmağı tələb edir. KİV hər seçkidən-seçkiyə yüksək peşəkarlıq nümayiş etdirir. Bunun üçün əsaslar var. Telekanallar seçkilərin işıqlandırılması ilə bağlı kifayət qədər təcrübə əldə edib. Milli Televiziya və Radio Şurasına indiyə qədər hər hansı qurum və namizəd tərəfindən şikayət ünvanlanmayıb.

Nuşirəvan Məhərrəmov qeyd edib ki, hazırda bizi ən çox maraqlandıran məsələ bütün televiziya və radio kanallarının fəaliyyətinin seçki qanunvericiliyinə uyğunlaşdırılmasıdır. Ödənişli təşviqata bütün radio və televiziyalar hazırdır. Seçki təşviqatı ilə reklam fəaliyyəti arasında balans gözlənilməlidir. Azərbaycanda başqa ölkələrdən fərqli olaraq televiziyalarda mal və xidmətlərin reklamı namizədlər üçün ayrılan vaxtın qiymətindən baha olur. Bu səbəbdən telekanallar bəzən namizədlər üçün pullu efir vaxtının ayrılmasında maraqlı olmurlar. Televiziya və radio kanallarının namizədlər üçün pullu efir vaxtı ilə bağlı ödəniş məsələsinə normal yanaşılmalıdır.

Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov Şuranın seçki ilə bağlı fəaliyyətindən danışıb. O deyib ki, Mətbuat Şurası hazırda 7 televiziya kanalının, 15 qəzetin, 10 informasiya agentliyinin və xəbər portalının monitorinqini aparır. Beynəlxalq təşkilatların müəyyənləşdirdiyi prinsip və qaydalar əsasında aparılan monitorinqlər zamanı namizədlərlə bağlı materialların nə dərəcədə peşəkarlıqla hazırlanması araşdırılacaq. Bu zaman faktla müəllifin şərhi arasındakı fərqə də diqqət yetiriləcək. Səsvermə günü Mətbuat Şurasının telefonları "qaynar xətt" kimi fəaliyyət göstərəcək. Mətbuat Şurasının İdarə Heyətinin üzvləri də müşahidəçi qismində paytaxtda və bölgələrdə olacaqlar, seçkilərin gedişini işıqlandırmaq üçün jurnalistlərə yaradılan şərait nəzərdən keçiriləcək. Hər hansı məsələ ortaya çıxan zaman Mərkəzi Seçki Komissiyası ilə əlaqə yaradılacaq. Əminik ki, media nümayəndələri əvvəlki seçkilərdə olduğu kimi, 11 aprel prezident seçkilərini də obyektiv, dəqiq və qərəzsiz işıqlandıracaqlar.

Sonra Mərkəzi Seçki Komissiyasının sədr müavini Natiq Məmmədovun "Azərbaycan Respublikası Prezidenti seçkilərində seçkiqabağı təşviqat mərhələsində təşviqat subyektlərinin azad davranışı və bərabərliyi. Bu prosesdə KİV-lərin rol və vəzifələri" mövzusunda məruzəsi dinlənilib.

Daha sonra məruzə ətrafında fikir mübadiləsi aparılıb və sual doğuran məsələlər müzakirə olunub.




## Yeni Azərbaycan Partiyası tərəfindən prezidentliyə namizəd cənab İlham Əliyevin prezident seçkilərində namizədliyinə dəstək xarakterli virtual kampaniyaya start verilib

Yeni Azərbaycan Partiyası tərəfindən prezidentliyə namizəd cənab İlham Əliyevin prezident seçkilərində namizədliyinə dəstək xarakterli virtual kampaniyaya start verilmişdir. Kampaniyaya qoşulmaq üçün http://aprel2018.biz/ saytına keçərək, şəklinizi asan formada yükləməklə dəstəyinizi bildirmiş olarsınız.

## Mərkəzi Seçki Komissiyasında prezidentliyə namizədlərə ayrılmış ödənişsiz efir vaxtının bölgüsü ilə bağlı püşkatma keçirilib

***2018-ci il aprelin 11-nə təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkiləri ilə əlaqədar prezidentliyə namizədlərin İctimai Televiziya və Radio Yayımları Şirkəti tərəfindən ödənişsiz əsaslarla ayrılmış efir vaxtının bölgüsü məqsədilə martın 19-da Mərkəzi Seçki Komissiyasında (MSK) püşkatma keçirilib. Bu barədə AZƏRTAC-a MSK Katibliyinin media və ictimai əlaqələr şöbəsindən məlumat verilib.***



Bildirilib ki, artıq prezidentliyə namizədlərin qeydiyyatı başa çatıb, 8 iddiaçının namizədliyi qeydə alınıb və martın 19-dan seçkiqabağı təşviqata start verilib. Seçki Məcəlləsinin tələbinə əsasən, prezidentliyə namizədlərin İctimai Televiziya və Radio Yayımları Şirkətində ödənişsiz əsaslarla efir vaxtı almaq hüquqlarının təmin edilməsi məqsədilə qanunvericilikdə nəzərdə tutulandan 2 dəfə artıq, həftədə 6 saat efir vaxtı ayrılıb. Qeydə alınmış namizədlər və namizədləri qeydə alınmış siyasi partiyaların təşəbbüsü ilə Mərkəzi Seçki Komissiyası və İctimai Televiziya və Radio Yayımları Şirkəti arasında əldə olunmuş razılığa əsasən ayrılmış efir vaxtı təqdim etmiş qurumun imkanları daxilində həftənin 3 günü hər dəfə 1 saat olmaqla saat 19.00-da radioda, 22.00-da isə televiziyada istifadəçilərin sərəncamına veriləcək. Mərkəzi Seçki Komissiyasının qərarına əsasən, ayrılmış efir vaxtının qanunvericiliklə müəyyən edilmiş qaydada həmin vaxtdan istifadə etmək hüququ olan subyektlər arasında bölüşdürülməsi məqsədilə əvvəlcədən püşkatma komissiyası yaradılıb, püşkatmanın keçirilməsi tarixi və vaxtı müəyyən olunub.

Sonra qeydə alınmış namizədlərin səlahiyyətli nümayəndələrinin, beynəlxalq müşahidəçilərin və kütləvi informasiya vasitələri nümayəndələrinin iştirakı ilə püşkatma keçirilib və prezidentliyə namizədlərin, yaxud onların səlahiyyətli nümayəndələrinin "Dəyirmi masa" ətrafında yerləşmə və sözverilmə ardıcıllığı müəyyən olunub.

Mərkəzi Seçki Komissiyası püşkatmanın nəticələrinin rəsmiləşdirilərək, efir vaxtının bölgüsü cədvəlinin Seçki Məcəlləsində nəzərdə tutulan qaydada dərc edilməsini qərara alıb.

# Əli Əhmədov: “Seçkilərin şəffaf keçiriləcəyinə əminəm”



***Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP-ın Sədr müavini - İcra katibi Əli Əhmədov martın 19-da ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu Müvəqqəti müşahidə missiyasının rəhbəri xanım Korin Yonkeri partiyanın mənzil-qərargahında qəbul edib. YAP-dan SİA-ya verilən xəbərə görə, görüşdə YAP-ın Sədr müavini Əli Əhmədov Yeni Azərbaycan Partiyasının aprelin 11-də keçiriləcək prezident seçkilərinə hazırlıq işlərindən bəhs edərək, seçkilərin ədalətli və şəffaf keçiriləcəyinə əminliyini ifadə edib.***

ATƏT/DTİHB-in Müvəqqəti müşahidə missiyasının rəhbəri xanım Korin Yonker görüşdən məmnunluğunu bildirərək, qurumun Azərbaycanda seçkilər prosesinə maraq göstərdiyini qeyd edib. Görüşdə YAP İcra katibinin müavini, Milli Məclisin ictimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov, YAP Beynəlxalq əlaqələr şöbəsinin müdiri, Milli Məclisin deputatı Sevinc Fətəliyeva iştirak ediblər.

# YAP-ın Mərkəzi Seçki Qərargahında yüksək seçki əhval - ruhiyyəsi hökm sürür

***2018 -ci il aprelin 11-də Azərbaycan Respublikasında keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyasının Mərkəzi Seçki Qərargahı fəaliyyət göstərir. YAP Mərkəzi Seçki Qərargahı partiyamızın Sədri, cənab İlham Əliyevin namizədliyinin dəstəklənməsi istiqamətində seçki qanunvericiliyinə uyğun olaraq fəaliyyətini uğurla davam etdirir.***














Martın 19-da prezident seçkiləri kampaniyasının təşviqat mərhələsinin başlanması ilə əlaqədar YAP Mərkəzi Seçki Qərargahında gərgin iş rejimi davam edir.

Artıq partiyanın rayon və şəhər təşkilatları təbliğat-təşviqat prosesinin başlanması ilə əlaqədar olaraq prezidentliyə namizəd cənab İlham Əliyevin təşviqat plakatlarını qanunvericiliyə uyğun şəkildə ayrılmış ərazilərdəki lövhələrə vurulması prosesini başa çatdırmışlar. Eyni zamanda, seçicilərlə görüşlərə start verilib. Həmçinin, təbliğat materallarının yerlərə çatdırılması məsələləri həll olunub.

Bundan əlavə, martın 19-da təbliğat-təşviqat kampaniyası ilə əlaqədar “ilhamaliyev2018.az” saytı yaradılıb və YAP Mərkəzi Seçki Qərargahında bu saytın təqdimatı keçirilib.

Hazırda da partiyanın Mərkəzi Seçki Qərargahında yerli strukturlarla sıx əlaqələrin qurulması üçün xüsusi qruplar yaradılıb və həmin qruplar onlar üçün ayrılmış kabinetlərdə fəaliyyət göstərirlər.

Onu da vurğulayaq ki, martın 19-da YAP rəhbərliyi partiyanın təbliğat-təşviqat mərhələsinin başlanması ilə əlaqədar YAP Mərkəzi Seçki Qərargahında ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun Müvəqqəti müşahidə missiyasının rəhbəri ilə görüş keçirib.

Bütövlükdə, partiyanın Mərkəzi Seçki Qərargahı seçkilərin təbliğat-təşviqat mərhələsinin başlanması ilə əlaqədar bütün qüvvələri səfərbər edib və kampaniya dövründə ən müasir seçki texnologiyalarından istifadə olunur. Hal-hazırda qərargahda yüksək seçki əhval-ruhiyyəsi hökm sürür.

# YAP prezident seçkiləri ilə bağlı sayt yaradılıb

Yeni Azərbaycan Partiyasının (YAP) qərargahında 11 aprel prezident seçkiləri ilə əlaqədar yaradılmış www.ilhamaliyev2018.az saytının təqdimatı keçirilib. SİA-nın məlumatına görə, təqdimatda YAP İcra katibinin müavini, deputat Siyavuş Novruzov, YAP üzvü, deputat Vüsal Hüseynov və digər şəxslər iştirak ediblər. Siyavuş Novruzov bildirib ki, Seçki Məcəlləsinə uyğun olaraq bu






gündən etibarən təbliğat-təşviqat kampaniyası başlayır: “Bu təbliğat üsullarından biri də yeni internet saytının yaradılmasıdır”.

Saytda prezident İlham Əliyevin fəaliyyəti, daxili və xarici siyasətini əks etdirən məlumatlar yerləşdirilib. Təbliğat-təşviqat dövründə Yeni Azərbaycan Partiyası 40-dan çox mitinq keçirəcək. YAP qanunvericiliyə əsasən əhaliyə təbliğat xarakterli materiallar paylayacaq. Bundan başqa, sosial şəbəkələrdə təbliğat-təşviqatla bağlı kampaniyalara start veriləcək. Yeni saytda təbliğat imkanları genişdir. Buradan YAP-ın namizədi, cənab Prezident İlham Əliyevin fəaliyyəti barədə istənilən məlumatı bölüşmək olar.

# Bakıda möhtəşəm atəşfəşanlıq keçirilib

Dünən axşam saatlarında Bakıda Dənizkənarı Milli Parkda Azərbaycan xalqının milli bayramı - Novruz münasibətilə Bakı Şəhər İcra Hakimiyyəti və Mədəniyyət və Turizm Nazirliyi tərəfindən bayram konserti təşkil edilib. Konsert proqramından sonra saat 21:45-də möhtəşəm atəşfəşanlıq keçirilib. Atəşfəşanlıq şəhərimizin sakinləri və qonaqlarda xoş və unudulmaz anlar yaşadıb. Qeyd edək ki, Bakı Bulvarında bayram münasibəti ilə həmçinin müxtəlif əyləncə proqramları da təşkil ediləcək.



# Xalqımız Cənab İlham Əliyevi növbəti dəfə Prezident görmək istəyir

## QOBUSTAN

Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Qobustan rayon şöbəsi təbliğat işlərinə start verdi. Dünən Yeni Azərbaycan Partiyası Qobustan rayon təşkilatı tərəfindən təşviqat lövhələrinə şəkil asma aksiyası keçirildi. Aksiya zamanı, hər birində 3 nəfər könüllü olmaqla, yaradılmış 9 qrup tərəfindən rayon ərazisindəki 28 təşviqat lövhəsinə hər iki tərəfdən 56 şəkil asılmışdır. Təbliğat-təşviqat qrupları qabaqcadan tərtib olunmuş qrafik üzrə seçicilərlə görüş keçirəcək, əhali ilə birbaşa ünsiyyətdə olacaq, hakim partiyanın gələcək yüksək amal və ideyalarını insanlara çatdıracaqdır. Yeni Azərbaycan Partiyasının ali məramının Azərbaycan xalqına xidmət etməkdən ibarət olduğu, regionlarda, eləcə də, Qobustanda bundan sonra da həyata keçiriləcək uğurlu planların məqsədi açıqlanacaqdır. Azərbaycanın gələcək inkişafı yalnız Cənab İlham Əliyev siyasətindən və Onun həyata keçirdiyi iqtisadi- siyasi proqramlardan asılıdır. Rayon gənclərinin fəal iştirakı təbliğat-təşviqat kampaniyasına xüsusi çalar qatacaq və təbliğatı daha dinamik edəcəkdir. Əhali ilə görüşlərdə rayon ağsaqqalları, partiya veteranları, ziyalılar və könüllülər iştirak edəcəklər. Görüşlər müxtəlif formalarda, ən yüksək şəkildə həyata keçiriləcəkdir. Seçicilərlə keçiriləcək çoxsaylı görüşlərdə Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin zəngin həyat yolundan, Onun Seçki Proqramından, Azərbaycan dövlətçiliyi üçün həyata keçirdiyi misilsiz xidmətlərdən və ölkəmizin gələcək inkişaf konsepsiyasından çıxışlar ediləcəkdir. Azərbaycan dövlətinin bu gün supergüclərdən birinə çevrilməsinin əsas səbəbi, məhz dövlət başçısı İlham Əliyevin əvəzolunmaz siyasətidir, Onun reallaşdırdığı iqtisadi layihələrdir, insanların yaddaşında xəyal kimi dolanan ideyalar, məhz Prezident İlham Əliyevin sayəsində öz reallığını tapmışdır. Bütün bunlar, bir daha əminlik yaradır ki, Azərbaycan xalqı bir daha öz uğurlu seçimini edərək, Cənab İlham Əliyevə səs verməklə ölkənin inkişafına və tərəqqisinə səs verəcək.



## GƏNCƏ

Dünən 11 aprel 2018-ci il tarixdə keçiriləcək prezident seçkiləri ilə bağlı Mərkəzi Seçki Komissiyası tərəfindən qeydə alınmış namizədlərin seçkiqabağı təşviqat kampaniyasına start verilib. Yeni Azərbaycan Partiyasının Mərkəzi Seçki Qərargahının Gəncə şəhər şöbəsi təşviqat kampaniyasına uğurla qoşulub. Kampaniya başlayan andan etibarən partiya fəalları Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin təşviqat materiallarını 37, 38, 39 və 40 saylı Seçki Dairələri üzrə seçki məntəqələri ərazilərində nəzərdə tutulmuş seçki lövhələrində asmağa başlayıblar. Partiyanın Mərkəzi Seçki Qərargahının Gəncə şəhər şöbəsində prezident seçkiləri ilə bağlı tədbirlər planı hazırlanıb, ziyalılardan və nüfuzlu şəxslərdən ibarət təbliğat qrupu yaradılıb. Çevik və operativ fəaliyyət göstərən partiya üzvləri bu kampaniyanın yüksək səviyyədə keçirilməsi üçün tam səfərbər edilib. 100 nəfərdən çox gənc təşviqatçı qruplara bölünərək, plakatların asılmasında fəallıq göstəriblər. Bukletlərin, təbliğat-təşviqat materiallarının paylanması ilə yanaşı, açıq və qapalı yerlərdə seçicilərlə görüşlər də keçiriləcək. Mərkəzi Seçki Komissiyası tərəfindən seçkilərlə bağlı hazırlanan Təqvim Planına əsasən, martın 19-u saat 08:00-da başlayacaq təşviqat kampaniyası aprelin 10-u səhər saat 08:00-da bitəcək.




## BİLƏSUVAR

11 aprel 2018-ci il tarixdə keçiriləcək Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə əlaqədar 19 mart 2018-ci il tarixdən təbliğat və təşviqat kampaniyasına start verilmişdir. YAP Biləsuvar rayon təşkilatı təşviqat materiallarının seçki məntəqələrinin qarşısındakı təşviqat lövhələrinə asılmasını çox böyük mütəşəkkilliklə həyata keçirimişdir.



## SƏBAİL

Dünən 11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə əlaqədar YAP Mərkəzi Seçki Qərargahının Səbail rayon şöbəsində Azərbaycan Respublikasının Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq, təşviqat kampaniyasına start verildi. Saat 00:00-dan başlayaraq YAP Səbail rayon təşkilatının fəallarından təşkil olunmuş komanda prezident seçkiləri ilə bağlı təşviqat materiallarını 29 saylı Səbail və 23 saylı Nəsimi-Səbail seçki dairələri üzrə, ümumilikdə, 40 seçki məntəqəsinin ərazisində quraşdırılmış təşviqat lövhələrinə vurmağa başladılar. Tərtib olunmuş qrafikə uyğun olaraq 23 mart tarixindən başlayaraq, rayon seçiciləri ilə görüşlər keçiriləcəkdir.




## BALAKƏN

Yeni Azərbaycan Partiyası Balakən rayon təşkilatı prezident seçkiləri ilə əlaqədar Seçki Məcəlləsinin 75.2 maddəsinə uyğun olaraq təşviqat kampaniyasına başlamışdır.



YAP fəalları rayonun 54 seçki məntəqəsində partiyanın namizədi İlham Əliyev Cənablarının təşviqat şəkillərini seçki məntəqələrinin önündəki lövhələrdə 1-ci sırada yapışdırmışlar. Yeni Azərbaycan Partiyasının rayon təşkilatının fəallarından Səlimov Fizuli və Dibirov Araz təşviqat kampaniyasına fəal qoşulmuşlar.

## AĞSTAFA

Dünən səhər 11 aprel 2018-ci ildə Azərbaycan Respublikasında keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası Seçki Qərargahının Ağstafa rayon şöbəsi lövhələrə Cənab İlham Əliyevin şəkillərini yapışdırmağa başladı. Bununla əlaqədar YAP Ağstafa rayon təşkilatının bir qrup gənc fəalları bu kampaniyada fəal iştirak etdilər.



## ŞABRAN

2018-ci il aprelin 11-də keçiriləcək prezident seçkiləri ilə bağlı Yeni Azərbaycan Partiyasının Mərkəzi Seçki Qərargahının Şabran rayon şöbəsi təşviqat kampaniyasına uğurla start verib. Dünən səhərdən etibarən partiya fəalları Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin təşviqat materiallarını Seçki Dairələri üzrə seçki məntəqələri ərazilərində nəzərdə tutulmuş seçki lövhələrində asmağa başlayıblar. Partiyanın Mərkəzi Seçki Qərargahının Şabran rayon şöbəsində prezident seçkiləri ilə bağlı tədbirlər planı hazırlanıb, ziyalılardan və nüfuzlu şəxslərdən ibarət təbliğat qrupu yaradılıb.



## YEVLAX

Dünən YAP Yevlax rayon təşkilatı təbliğat qrupunun üzvləri Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Heydər oğlu Əliyevin şəkillərini şəhərin 57 məntəqə ərazisində yerləşən xüsusi təbliğat lövhəsinə yerləşdiriblər. Təşviqat materiallarını artıq 48 saylı Yevlax və 49 saylı Yevlax-Mingəçevir Seçki Dairəsinin bütün məntəqələri ərazisində görmək mümkündür. Kampaniyada 20-dən artıq gənc iştirak edirdi. Yevlaxlı seçicilər Cənab İlham Əliyevin təşviqat materialını böyük maraqla izləyir və artıq öz seçimlərini ediklərini ifadə edirdilər. Yevlax şəhərində 2 DSK üzrə 59342 nəfər seçici mövcuddur.




## DAŞKƏSƏN



Dünən baharın ilıq nəfəsi duyulur. Bütün daşkəsənlilər bayram əhval-ruhiyyəsindədirlər.

Ardı Səh. 7

# Xalqımız Cənab İlham Əliyevi növbəti dəfə Prezident görmək istəyir

Əvvəli Səh. 6

Onlar həm Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin təbliğat kampaniyası sevincini yaşayırlar. Bu təbliğata bütün daşkəsənlilər böyük həvəs və coşqu ilə qoşuldular. Səhər saatlarının olmasına baxmayaraq gənclər, qadınlar və ağsaqqallar Daşkəsən şəhəri Heydər Əliyev meydanına toplaşaraq, 11 aprel prezident seçkilərində Cənab İlham Əliyevi dəstəkləyəcəklərini bildirdilər.

## ŞAMAXI

Dünən səhər 11 aprel 2018-ci ildə Azərbaycan Respublikasında keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası Seçki Qərargahının Şamaxı rayon şöbəsi lövhələrə Cənab İlham Əliyevin şəkillərini yapışdırmağa başladı. Yüksək fəallıq göstərən partiya üzvləri bu kampaniyanın yüksək səviyyədə keçirilməsi üçün tam səfərbər edilib. Əminliklə demək olar ki, şamaxılılar bu dəfə də yüksək seçki fəallığı göstərəcək və YAP-ın namizədi Cənab İlham Əliyevin Prezident seçilməsinə səs verəcəklər.




## TƏRTƏR

11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə əlaqədar mart ayının 19-da başlanan təbliğat-təşviqat kampaniyası çərçivəsində YAP Tərtər rayon təşkilatı, YAP Mərkəzi Seçki Qərargahının Tərtər rayon şöbəsi təbliğat-təşviqatla bağlı görüləcək işlərə start vermişdir. Tərtər rayonu ərazisində prezident seçkilərində 95 saylı Seçki Dairəsi üzrə 38 seçki məntəqəsində 38038 nəfər, 97 saylı Goranboy-Ağdam-Tərtər Seçki Dairəsi üzrə 3 seçki məntəqəsində 2890 nəfər, ümumilikdə rayon üzrə 40928 nəfər seçici iştirak edəcəkdir.




## SAMUX

11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə əlaqədar YAP Mərkəzi Seçki Qərargahının Samux rayon şöbəsi martın 19-dan etibarən, qanunvericiliyə uyğun olaraq təbliğat-təşviqat kampaniyasına start verib. Yeni Azərbaycan Partiyası tərəfindən Azərbaycan Respublikasının Prezidentliyinə namizədliyi irəli sürülmüş Cənab İlham Heydər oğlu Əliyevin Samux rayonu üzrə seçki qərargahı tərəfindən təbliğat kampaniyası başlayan andan etibarən Yeni Azərbaycan Partiyasının namizədi İlham Əliyevin plakatları seçki lövhələrində asılmağa başlayıb. Bu kampaniyada YAP Samux rayon təşkilatının fəal gəncləri böyük ruh yüksəkliyi ilə aktiv iştirak edərək, Cənab İlham Əliyevin şəkillərini lövhələrə birinci sırada yapışdırıblar. Samux rayonunda Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası uğurla davam edir. Rayonun Burunqovaq kəndində təbliğat yığıncaqları keçiriləcək. Yığıncaqda 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə əlaqədar YAP Samux rayon seçki qərargahının üzvləri iştirak edəcəklər.



## Qax

YAP Mərkəzi Seçki Qərargahının Qax rayon şöbəsi 11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə bağlı təbliğat-təşviqat kampaniyasına start verdi. Səhər saatlarından Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədi Cənab İlham Əliyevin şəkilləri seçki məntəqələrinin ərazisində quraşdırılmış təbliğat-təşviqat lövhələrinə yapışdırıldı. Bu kampaniyada YAP Qax rayon təşkilatının gənc fəallardan ibarət qrupu aktiv şəkildə fəaliyyət göstərdilər. YAP Mərkəzi Seçki Qərargahının Qax rayon şöbəsi, fəaliyyət proqramına uyğun olaraq, təbliğat kampaniyası dövründə seçki qərargahının təyin etdiyi təbliğat qrupları vasitəsilə seçicilər arasında təbliğat-təşviqat materiallarının paylanmasını nəzərdə tutmuş və eyni zamanda, əvvəlcədən tərtib olunmuş qrafikə əsasən, seçicilərlə görüşlər planlaşdırmışdır.



## TOVUZ

Dünən Tovuzda 2018-cil il aprelin 11-də keçiriləcək prezident seçkilərinin təbliğat-təşviqat kampaniyasına çox yüksək siyasi fəallıqla başlanılmışdır. Səhər tezdən Yeni Azərbaycan Partiyasının fəalları "İlhamla İrəli!" şüarı altında hərəkət edərək 104 saylı Gədəbəy-Tovuz, 105 saylı Tovuz, 106 saylı Tovuz- Qazax-Ağstafa seçki dairələrinin əhatə etdiyi 98 seçki məntəqəsinin hər birində prezidentliyə namizədlərin təbliğatı üçün nəzərdə tutulmuş lövhələrdə YAP-ın prezidentliyə namizədi Cənab İlham Əliyevin şəkillərini yerləşdirmişlər. Bu kampaniya yaşayış məntəqələrinin sakinləri tərəfindən maraqla və məmnunluqla izlənilmiş, aksiyanı müşahidə edən vətəndaşların hamısı Cənab İlham Əliyevin namizədliyini birmənalı şəkildə dəstəkləyəcəklərini bildirmişlər. Sonra fəallar Novruz bayramı ilə əlaqədar keçirilən yarmarkada və əhalinin sıx toplaşdığı digər yerlərdə seçicilərə 2003-2018-ci illərdə Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında qazanılmış möhtəşəm tarixi nailiyyətləri, eləcə də, 2018-2025-ci illərə aid yeni hədəfləri əks etdirən təbliğat materiallarını çatdırmışlar.



## ZƏRDAB

11 aprel 2018-ci il tarixdə keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası Zərdab rayon təşkilatının seçki qərargahı Azərbaycan Respublikasının Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq prezident seçkilərinin təbliğat-təşviqat kampaniyasına start verdi. Təbliğat kampaniyasına "İlhamla İrəli!" devizi altında plakatların təbliğat lövhələrində asılması ilə başlanıldı. Təşviqat qrupunun üzvləri və gənc YAP-çılar kampaniyanı yüksək ruh yüksəkliyi ilə və coşqu ilə başa çatdırdılar. Zərdab rayonu ərazisində 92 saylı Zərdab -Ucar seçki dairəsi üzrə 42 seçki məntəqəsi yerləşir. Zərdab rayonu üzrə 35435 seçici qeydiyyatdadır. Zərdab rayon seçiciləri həmişə olduğu kimi bu dəfə də fəallıq və mütəşəkkillik göstərirlər. Bütün seçkilərdə olduğu kimi, Yeni Azərbaycan Partiyasının və onun layiqli namizədinin bu seçkidə də qələbəsi mütləqdir. Çünki Azərbaycan 2003-2018-ci illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm tarixi nailiyyətlər qazanıb. Qarşıda isə yeni və böyük vəzifələr dayanır. Növbəti 7 il üçün təqdim olunan proqram keçilən yolun nailiyyətlərinə əsaslanır, ölkəmizin inkişafı, insanlarımızın rifahının yaxşılaşması naminə "İlhamla irəli!" devizi altında 15 il ölkəmizə xidmət göstərmiş siyasətin bundan sonra da davam etdirilməsinə, dövlətimizin qüdrətini və əzəmətini daha da artırmaq məqsədinin gerçəkləşməsinə xidmət edir. Ona görə də xalqın qarşıdan gələn prezident seçkilərində də Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevə səs verəcəyi heç kəsdə şübhə doğurmur.




## PİRALLAHI

Dünən 2018-ci ilin 11 aprel tarixində keçiriləcək Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə əlaqədar təbliğat - təşviqat kampaniyasına start verilib. Yeni Azərbaycan Partiyasının Mərkəzi Seçki Qərargahının Pirallahı rayon şöbəsi təşviqat kampaniyasına uğurla start verib. Partiya fəalları Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin təşviqat materiallarını seçki məntəqələri ərazilərində seçki lövhələrində asmağa başlayıblar. YAP Mərkəzi Seçki Qərargahının Pirallahı rayon şöbəsində prezident seçkiləri ilə bağlı tədbirlər planı hazırlanıb və təbliğat qrupu yaradılıb.



## UCAR

11 aprel 2018-ci il tarixdə Azərbaycanda keçiriləcək prezident seçkilərinə hazırlıq işləri yüksək səviyyədə davam etdirilir. Belə ki, qanunvericiliyə əsasən, martın 19-dan başlayaraq prezident seçkilərinə namizədlikləri qeydə alınmış şəxslərin təbliğat-təşviqat kampaniyasına start verilib. Bununla əlaqədar olaraq Yeni Azərbaycan Partiyası tərəfindən prezidentliyə namizədliyi irəli sürülmüş Yeni Azərbaycan Partiyasının Sədri İlham Heydər oğlu Əliyevin təbliğat materiallarının yayılmasına başlanılıb.



Ardı Səh. 8

# Xalqımız Cənab İlham Əliyevi növbəti dəfə Prezident görmək istəyir

Əvvəli Səh. 7

Yeni Azərbaycan Partiyası Ucar rayon təşkilatı da qanunvericiliyin tələblərinə və Yeni Azərbaycan Partiyasının Mərkəzi Seçki Qərargahının müvafiq tapşırıq və tövsiyələrinə uyğun olaraq, partiyanın namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyasına fəal qoşulub. Təbliğat üçün ayrılmış müvafiq yerlərdə təbliğat materialları olan və üzərində "İlhamla İrəli!" şüarı yazılmış plakatlar asılıb.

Təbliğat-təşviqat kampaniyasının yüksək səviyyədə və mütəşəkkil həyata keçirilməsi üçün prosesə Yeni Azərbaycan Partiyası Ucar rayon təşkilatının gənc fəalları və könüllüləri qoşulub.

Qeyd edək ki, təbliğat-təşviqat kampaniyası müddətində Yeni Azərbaycan Partiyasının Mərkəzi Seçki Qərargahının Ucar rayon şöbəsi, öncədən təsdiq olunmuş qrafikə uyğun olaraq, mütəmadi təbliğat tədbirləri keçirəcək və seçicilərin seçki prosesinə fəal qoşulması istiqamətində silsilə görüşlər təşkil edəcək.

## CƏLİLABAD

Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Cəlilabad rayon şöbəsi 11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkilərinin yüksək səviyyədə və rayonun seçicilərinin siyasi fəallığı şəraitində keçirilməsini təmin etmək məq-




sədilə nəzərədə tutulmuş hazırlıq tədbirlərini davam etdirir. Azərbaycan Respublikasının Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq, 19 mart 2018-ci il tarixdən rayonda seçkiqabağı təbliğat-təşviqat tədbirlərinə start verilmişdir. 19 mart 2018-ci ildə səhər saat 8:00-dan başlayaraq Azərbaycan Respublikasının Prezidentliyinə Yeni Azərbaycan Partiyasının VI qurultayında namizədliyi irəli sürülən Cənab Əliyev İlham Heydər oğlunun şəkillərinin müəyyən olunmuş yerlərdə asılması tədbirlərinə başlanılmışdır. Bu məqsədlə rayonun 3 seçki dairəsinin əhatə etdiyi ərazilərdə gənclərdən və partiya fəallarından ibarət ayrıca qruplar yaradılmış və bu gün səhər saat 8:00-dan başlayaraq, həmin qruplar onlara tapşırılmış işin icrasına başlamışlar. Cəlilabad rayonunun 87 seçki məntəqəsinin əhatə etdiyi bütün yaşayış məntəqələrində həmin tədbir yüksək siyasi fəallıq şəraitində davam etdirilir və seçicilər tərəfindən rəğbətlə qarşılanır. Yeni Azərbaycan Partiyasının Cəlilabad rayon təşkilatı və partiyanın seçki qərargahının Cəlilabad şöbəsi 11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkilərinin şəffaf, demokratik seçicilərin mütəşəkkilliyi və yüksək siyasi fəallığı şəraitində keçirilməsi və bu seçkilərdə YAP-ın namizədinin seçicilərin mütləq əksəriyyətinin səslərini qazanmalarının təmin olunması üçün yaşayış məntəqələrində, əhalinin cəmləşdiyi və gur olduğu yerlərdə təbliğat-təşviqat tədbirlərinin və partiyanın namizədləri ilə seçicilərin görüşlərinin yüksək səviyyədə təşkil olunması və keçirilməsini təmin etmək üçün təşkilatçılıq və siyasi işi davam etdirir.

## LAÇIN

11 aprel 2018-ci il tarixində keçiriləcək prezident seçkiləri ilə bağlı təbliğat-təşviqat kampaniyasına start verilib. YAP Mərkəzi Seçki Qərargahının Laçın rayon şöbəsi böyük coşqu ilə təbliğat kampaniyasına başladı. Təbiğat kampaniyasına "İlhamla İrəli!" devizi altında plakatların təbliğat lövhələrində asılması ilə start verildi.

11aprel prezident seçkiləri üzrə təşviqat qrupunun üzvləri və gənclər kampaniyanı uğurla başa çatdırdılar. Biz inanırıq ki, bütün seçkilərdə olduğu kimi, Yeni Azərbaycan Partiyası bu seçkidədə qələbə qazanacaq .

121 saylı Laçın seçki dairəsi üzrə 102 seçki məntəqəsi



yerləşir. Laçın rayonunda 46200 seçici qeydiyyatdadır. Laçın seçiciləri, həmişə olduğu kimi, bu dəfə də fəallıq göstərəcəklər. Çünki Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövləti son illər cox böyük uğrlar qazanıb, ölkəmizin iqtisadiyyatı yüksək sürətlə inkişaf edir. Xalqımızın rifah halı əsaslı şəkildə yüksəlib, ölkəmizin beynəlxalq səviyyədə nüfuzu durmadan artır. Bütün bu nailiyyətlər hər bir azərbaycanlıda qürür hissi doğurur. Ona görə də, xalqın qarşıdan gələn prezident seçkilərində də Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevə səs verəcəyi heç kəsdə şübhə doğurmur.

## KÜRDƏMİR

Yeni Azərbaycan Partiyası tərəfindən prezidentliyə namizədliyi irəli sürülmüş, Yeni Azərbaycan Partiyasının Sədri Cənab İlham Heydər oğlu Əliyevin təbliğat materiallarının yayılmasına başlanılıb.Yeni Azərbaycan Partiyasının Mər-



kəzi Seçki Qərargahının Kürdəmir rayon şöbəsi 11 aprel 2018-ci il tarixdə keçiriləcək Azərbaycan Respublikasının Prezident seçkiləri ilə əlaqədar hal-hazıra qədər partiyamızın İcra Katibliyi tərəfindən verilən tövsiyə və tapşırıqlara uyğun olaraq, müvafiq mərhələlər üzrə nəzərdə tutulan işləri uğurla həyata keçirməkdədir. Artıq mart ayının 19-dan başlayaraq, Seçki Məcəlləsinin müvafiq tələblərinə uyğun olaraq təbliğat-təşviqat kampaniyasına start verilib. Təbliğat - təşviqat kampaniyasının başlaması ilə əlaqədar Yeni Azərbaycan Partiyasından namizədliyi irəli sürülən Cənab İlham Əliyevin plakatları məntəqələr üzrə ayrılmış lövhələrə yapışdırılıb. Bu prosesi əsasən, partiyanın gənc fəallarından ibarət olan qrup həyata keçirib. YAP Kürdəmir rayon təşkilatının fəal gənclərindən yaradılmış təbliğat-təşviqat komandası Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin plakatlarını məntəqə seçki komissiyalarının ərazisindəki təbliğat-təşviqat lövhələrinə yapışdırılması prosesini uğurla sona çatdırıb.

Yeni Azərbaycan Partiyasının Mərkəzi Seçki Qərargahının Kürdəmir rayon şöbəsi əvvəlcədən təsdiq olunmuş qrafikə uyğun olaraq, mütəmadi təbliğat tədbirləri keçirəcək və seçicilərin seçki prosesinə fəal qoşulması istiqamətində silsilə görüşlər təşkil edəcək.

## NƏSİMİ

Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Nəsimi rayon şöbəsi 11 aprel 2018-ci il tarixdə keçirələcək prezident seçkilərinin təbliğat-təşviqat kampaniyasına uğurla başlayıb. Namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülmüş Cənab İlham Əliyevin seçki plakatlarını Seçki Məcəlləsinin tələblərinə uyğun müəyyənləşdirilmiş müvafiq ərazilərdəki lövhələrə yapışdırmaq prosesini uğurla yekunlaşdırıb.

Rayon şöbəsi tərəfindən seçki prosesi, əvvəlki illərdə olduğu kimi, yüksək səviyyədə, Azərbaycan Respublikasının



Konstitusiyasının tələblərinə, Seçki Məcəlləsinə və onun təlimatlarına uyğun olaraq, şəffaf və ədalətli şəkildə keçiriləcək, əvvəlcədən təsdiq olunmuş qrafikə uyğun olaraq mütəmadi təbliğat tədbirləri təşkil olunacaqdır.

## OĞUZ

11 aprel 2018-ci il tarixində keçiriləcək prezident seçkisinin təbliğat-təşviqat mərhələsinə start verilib. Bütün seçki proseslərində olduğu kimi, prezident seçkisində də xüsusi fəallığı ilə seçilən, ölkənin ictimai-siyasi həyatında aparıcı qüvvə olan Yeni Azərbaycan Partiyası növbəti seçkilərə də



yüksək ab-hava ilə başlayıb. YAP Oğuz rayon təşkilatının fəalları prezident seçkilərində YAP-ın namizədi Cənab İlham Əliyevin təşviqat plakatlarını qanunla müəyyənləşdirilmiş yerlərdə yapışdırıblar, qərargah üzvləri, partiya fəalları təbliğat-təşviqat kampaniyasının yüksək səviyyədə həyata keçirilməsi üçün səfərbər edilərək, Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq təlimatlandırılıblar. Martın 19-da isə səhər saatlarında YAP Oğuz rayon təşkilatının fəalları prezident seçkilərində YAP tərəfindən namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin təşviqat plakatlarını qanunla müəyyənləşdirilmiş yerlərdə yapışdırıblar. Təşviqat materiallarının yapışdırılması prosesi uğurla başa çatıb.

## İSMAYILLI

11 aprel 2018-ci il tarixdə keçirələcək Azərbaycan Respublikası Prezident seçkilərinin təbliğat - təşviqat kampaniyasına start verilib. Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının İsmayıllı rayon şöbəsi təbliğat - təşviqat təd-



birləri çərçivəsində namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülmüş ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Heydər oğlu Əliyevin seçki plakatlarını Seçki Məcəlləsinin tələblərinə uyğun tərzdə müəyyənləşdirilmiş müvafiq ərazilərdəki lövhələrə yapışdırmaq prosesini başa çatdırıb.

YAP Mərkəzi Seçki Qərargahı İsmayıllı rayon şöbəsi tərəfindən təbliğat - təşviqat işlərinin yüksək səviyyədə təşkili üçün bütün seçki prosedurları uğurla davam etdirilir.

# Xalqımız Cənab İlham Əliyevi növbəti dəfə Prezident görmək istəyir

Rayon təşkilatı əmindir ki, əvvəlki illərdə olduğu kimi, bu seçkilər də yüksək səviyyədə, Azərbaycan Respublikasının Konstitusiyasının tələblərinə, Seçki Məcəlləsinə və onun təlimatlarına uyğun olaraq tam şəffaf və ədalətli şəkildə keçiriləcək.

## SABUNÇU

11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə əlaqədar 19 mart tarixində YAP Mərkəzi Seçki Qərargahının Sabunçu rayon şöbəsində Azərbaycan Respublikasının



Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq, təbliğat-təşviqat kampaniyasına start verilib.

Yüksək fəallıq göstərən partiya üzvləri kampaniyanın yüksək səviyyədə keçirilməsi üçün tam səfərbər edilib. Kampaniya çərçivəsində partiya fəalları Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin təşviqat materiallarını Seçki Dairələri üzrə seçki məntəqələri ərazilərində nəzərdə tutulmuş seçki lövhələrində asıblar.

Əminliklə demək olar ki, Sabunçu seçiciləri bu dəfə də yüksək seçki fəallığı göstərəcək və YAP-ın namizədi Cənab İlham Əliyevin yenidən Prezident seçilməsinə səs verəcəklər.

## AĞDAM

11 aprel 2018-ci il tarixində keçiriləcək prezident seçkilərinin təbliğat-təşviqat mərhələsinə start verilib. Bütün seçki proseslərində olduğu kimi, prezident seçkilərində də xüsusi fəallığı ilə seçilən, ölkənin ictimai-siyasi həyatında apa-




rıcı qüvvə olan Yeni Azərbaycan Partiyası növbəti seçkilərə də yüksək ab-hava ilə başlayıb.

"İlhamla irəli!" devizi ilə təşviqat kampaniyasına uğurla başlayan Yeni Azərbaycan Partiyasının Mərkəzi Seçki Qərargahının Ağdam rayon şöbəsi 11 aprel 2018-ci il tarixdə keçiriləcək Azərbaycan Respublikası Prezident seçkiləri ilə əlaqədar 19 mart 2018-ci il tarixdə rayonun 4 seçki dairəsinin 129 seçki məntəqəsində prezident seçkiləri ilə əlaqədar operativ fəaliyyətə başlayıb. Kampaniya çərçivəsində partiya fəalları Yeni Azərbaycan Partiyasının namizədi İlham Əliyevin təşviqat materiallarını Seçki Dairələri üzrə seçki məntəqələri ərazilərində nəzərdə tutulmuş seçki lövhələrində asıblar. Partiyanın Mərkəzi Seçki Qərargahının Ağdam rayon şöbəsində prezident seçkiləri ilə bağlı tədbirlər planı hazırlanıb, ziyalılardan və nüfuzlu şəxslərdən ibarət təbliğat qrupu yaradılıb.

## SURAXANI

11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyasının Mərkəzi Seçki Qərargahının Suraxanı rayon şöbəsi təşviqat kampaniyasına uğurla start verib. Dünən partiya fəalları keçiriləcək prezident seçkilərində namizədliyi irəli sürülmüş Yeni Azərbay-



can Partiyasının namizədi Cənab İlham Əliyevin təşviqat materiallarını seçki dairələri üzrə seçki məntəqələri ərazilərində nəzərdə tutulmuş lövhələrdə asıblar.

Suraxanılılar ölkənin inkişafı, insanın rifahı naminə Ulu Öndər Heydər Əliyevin siyasi xəttinin davamına səs verməklə, müstəqil Azərbaycanımızın işıqlı sabahına səs verəcəklər. Doğma Azərbaycanımız 2003-2018-ci illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm tarixi nailiyyətlər qazanıb. Qarşıda isə yeni və daha böyük vəzifələr dayanır.

Suraxanılılar Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevi yenidən ölkəmizin Prezidenti görmək istəyir. Vətənini sevən hər bir kəsi layiqli namizəd Cənab İlham Əliyevi dəstəkləməyə çağırır.

## NAFTALAN

Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Naftalan şəhər şöbəsi təbliğat-təşviqat tədbirləri çərçivəsində namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülmüş Cənab İlham Əliyevin seçki plakatlarını Seçki Məcəlləsinin tələblərinə uyğun müəyyənləşdirilmiş müvafiq




ərazilərdəki lövhələrə yapışdırmaq prosesi başa çatdırıb.

Naftalan şəhəri ərazisində 96 saylı Goranboy -Naftalan seçki dairəsi üzrə 5 seçki məntəqəsi yerləşir. Naftalan şəhəri üzrə 4930 seçici qeydiyyatdadır. Naftalan seçiciləri, həmişə olduğu kimi, bu dəfə də fəallıq göstərəcəklər. Çünki Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövləti son illər çox böyük uğurlar qazanıb, ölkəmizin iqtisadiyyatı yüksək sürətlə inkişaf edir. Xalqımızın rifah halı əsaslı şəkildə yüksəlib, ölkəmizin beynəlxalq səviyyədə nüfuzu durmadan artır. Bütün bu nailiyyətlər hər bir Azərbaycanlıda qürur hissi doğurur. Ona görə də, xalqın qarşıdan gələn prezident seçkilərində də Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevə səs verəcəyi heç kəsdə şübhə doğurmur.

## QƏBƏLƏ

2018-ci ilin mart ayının 19-dan başlayaraq, Qəbələdə səhər saatlarından təşviqat işlərinə başlamaq üçün start ve-




rilib. Verilən məlumata görə, rayonun 54 məntəqəsi 116 saylı Qəbələ seçki dairəsinin, 24 məntəqə isə 117 saylı Oğuz-Qəbələ seçki dairəsinin ərazisində yerləşir. Hər iki dairənin məntəqələrində hazırlıq işləri yüksək səviyyədə başa çatdırılıb.

Bildirilir ki, 116 saylı Qəbələ seçki dairəsində 43743 nəfər seçici, 117 saylı Oğuz-Qəbələ seçki dairəsində isə 20427 nəfər seçici təmsil olunur. Partiya fəalları vaxtaşırı olaraq seçicilərlə görüşür, onların mariflәndirilməsi ilə məşğul olurlar.

Seçicilər arasında təşviqat işləri aparmaq məqsədilə Seçki Qərargahı yanında 12 nəfərdən ibarət yerli təşviqat qrupu yaradılıb. Qrup üzvlərinin yerlərdə təsdiq olunmuş qrafikə uyğun görüşləri keçiriləcək.

## MASALLI

2018-ci il aprelin 11-də keçiriləcək prezident seçkiləri ilə bağlı Yeni Azərbaycan Partiyasının Mərkəzi Seçki Qərarga-




hının Masallı rayon şöbəsi təşviqat kampaniyasına uğurla start verib.

Masallı rayonunu əhatə edən 69 saylı Cəlilabad-Masallı-Biləsuvar, 70 saylı Masallı şəhər, 71 saylı Masallı kənd, 72 saylı Yardımlı-Masallı, 75 saylı Lənkəran-Masallı seçki dairələrinin 122 məntəqələrində YAP Masallı rayon təşkilatının fəalları Yeni Azərbaycan Partiyasının namizədi İlham Əliyevin təşviqat materiallarını Seçki Dairələri üzrə seçki məntəqələri ərazilərində nəzərdə tutulmuş seçki lövhələrində asmağa başlayıblar. Kampaniya uğurla davam etdirilir.

## ŞƏMKİR

Yeni Azərbaycan Partiyasının Şəmkir rayon təşkilatı aprelin 11-də keçiriləcək prezident seçkiləri ilə əlaqədar təbliğat-təşviqat kampaniyasına böyük ruh yüksəkliyi ilə başla-



yıb.

Kampaniyaya "İlhamla irəli!" devizi altında plakatların təbliğat lövhələrində asılması ilə start verilib.

Prezident seçkiləri üzrə təşviqat qrupunun üzvləri və fəal gənclər kampaniyanın uğurla başa çatması üçün xüsusi fəallıq göstərirlər. Rayon təşkilatının üzvləri bütün seçkilərdə olduğu kimi bu seçkidə də Yeni Azərbaycan Partiyasının qələbə qazanacağına inandıqlarını vurğulayıblar.

Qeyd edək ki, Şəmkir rayonu ərazisində 98 saylı Şəmkir şəhər, 99 saylı Şəmkir kənd, 100 saylı Şəmkir-Daşkəsən, 102 saylı Samux-Şəmkir seçki dairələri üzrə 108 seçki məntəqəsi yerləşir və kampaniya istiqamətində işlər uğurla davam etdirilir.

Ardı Səh. 10

# Xalqımız Cənab İlham Əliyevi növbəti dəfə Prezident görmək istəyir

Əvvəli Səh. 9

## İMİŞLİ

Yeni Azərbaycan Partiyası İmişli rayon təşkilatında rayonun 79 saylı İmişli və 80 saylı İmişli-Beyləqan Seçki Dai-




rələri üzrə icazə verilən ərazilərdə şəkil vurma kampaniyası başlanılıb. Kampaniyaya müvafiq olaraq, Yeni Azərbaycan Partiyasının namizədi İlham Əliyev Cənablarının təşviqatına uğurla başlanılıb və böyük ruh yüksəkiliyi ilə həyata keçirilir.

## XAÇMAZ

11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə əlaqədar 19 mart tarixində YAP Mərkəzi Seçki Qərargahının Xaçmaz rayon şöbəsində Azərbaycan Respublikasının Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq, təbliğat-təşviqat



kampaniyasına start verilib.

Rayon şöbəsi tərəfindən təbliğat-təşviqat işlərinin yüksək səviyyədə təşkili üçün bütün seçki prosedurları uğurla davam etdirilir.

Kampaniya çərçivəsində namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülmüş Cənab İlham Əliyevin təşviqat materiallarının Seçki Məcəlləsinin tələblərinə uyğun müəyyənləşdirilmiş müvafiq ərazilərdəki lövhələrə yapışdırmaq prosesi uğurla başa çatdırılmışdır.

## QUSAR

Dünən 11 aprel 2018-ci il tarixdə keçiriləcək prezident seçkiləri ilə bağlı Yeni Azərbaycan Partiyasının Mərkəzi Seçki Qərargahının Qusar rayon şöbəsi təbliğat-təşviqat



kampaniyasına uğurla start verib. Partiya üzvləri bu kampaniyanın yüksək səviyyədə keçirilməsi üçün tam səfərbər edilib. Kampaniya başlayan saatdan partiya fəalları Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin təşviqat materiallarını Seçki Dairələri üzrə seçki məntəqələri ərazilərində nəzərdə tutulmuş seçki lövhələrində asmağa başlayıb və uğurla başa vurublar.

## QUBA

11 aprel 2018-ci il tarixdə keçiriləcək prezident seçkiləri əlaqədar Yeni Azərbaycan Partiyası Seçki Qrargahının Quba rayon şöbəsi böyük coşqu ilə təbliğat-təşviqat kampaniyasına başlayıb. Rayon şöbəsi Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin şəkli əks olunmuş plakatların 52 saylı Quba, 53 saylı Quba-Qusar seçki dairələri-




nin 133 məntəqəsi qarşısındakı lövhələrə yapışdırılması ilə start verilib.

Yeni Azərbaycan Partiyası qərargahının Quba rayon şöbəsi üzvləri və fəal gənclər kampaniyanın uğurla başa çatması üçün xüsusi fəallıq göstərirlər. Quba seçiciləri, əvvəlki seçkilərdə olduğu kimi, bu dəfə də fəallıq göstərəcəklərini bildiriblər. Qeyd ediblər ki, Cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövləti, son illər çox böyük uğurlar qazanıb, ölkəmizin iqtisadiyyatı yüksək sürətlə inkişaf edir. Xalqımızın rifah halı yüksəlib, ölkəmizin beynəlxalq səviyyədə nüfuzu durmadan artır. Bütün bu nailiyyətlər hər bir azərbaycanlıda qürur hissi doğurur.

## AĞDAŞ

11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyasının Mərkəzi Seçki Qərargahının Ağdaş rayon şöbəsi Azərbaycan Respublikasının Seçki Mə-



cəlləsinin tələblərinə uyğun olaraq təbliğat-təşviqat kampaniyasına start verib. İlk olaraq, partiyanın rayon təşkilatının gənclər birliyinin fəallarından təşkil olunmuş qruplar rayonun 57 seçki məntəqəsinin ərazisində qurulmuş təşviqat lövhələrinə prezidentliyinə namizədliyi Mərkəzi Seçki Komissiyası tərəfindən qeydə alınmış Cənab İlham Əliyevin şəkli əks olunmuş plakatları vurmuşlar. Bu kampaniya rayon ərazisində səhər saatlarında uğurla başa çatmışdır.

Tərtib olunmuş qrafikə uyğun olaraq rayon seçiciləri ilə görüşlər keçiriləcək.

## BİNƏQƏDİ

11 aprel 2018-ci il tarixdə Azərbaycanda keçiriləcək prezident seçkilərinə hazırlıq işləri yüksək səviyyədə davam etdirilir. Belə ki, qanunvericiliyə əsasən, martın 19-dan başla-




yaraq prezident seçkilərinə namizədlikləri qeydə alınmış şəxslərin təbliğat-təşviqat kampaniyasına start verilib. Bununla əlaqədar olaraq Yeni Azərbaycan Partiyası tərəfindən prezidentliyə namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyevin təbliğat materiallarının yayılmasına başlanılıb.

Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatı da qanunvericiliyin tələblərinə və Yeni Azərbaycan Partiyasının Mərkəzi Seçki Qərargahının müvafiq tapşırıq və tövsiyələrinə uyğun olaraq, partiyanın namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyasına fəal qoşulub. Bunun üçün qanunvericiliklə müəyyən olunmuş yerlərdə, yəni Binəqədi rayonunda fəaliyyət göstərən 3 müstəqil - 8 saylı Binəqədi birinci, 9 saylı Binəqədi ikinci, 10 saylı Binəqədi üçüncü seçki dairələrinin, ümumilikdə 111 məntəqə seçki komissiyalarında və 1 müştərək - 12 saylı Qaradağ-Binəqədi-Yasamal seçki dairəsinin Binəqədi rayonu ərazisində yerləşən 4 məntəqə seçki komissiyasında təbliğat üçün ayrılmış müvafiq yerlərdə təbliğat materialları olan üzərində “İlhamla İrəli!” şüarı yazılmış plakatlar asılıb. Təbliğat-təşviqat kampaniyasının yüksək səviyyədə və mütəşəkkil həyata keçirilməsi üçün prosesə Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının gənc fəalları və könüllüləri qoşulub.

Təbliğat-təşviqat kampaniyası müddətində Yeni Azərbaycan Partiyasının Mərkəzi Seçki Qərargahının Binəqədi rayon şöbəsi öncədən təsdiq olunmuş qrafikə uyğun olaraq, mütəmadi təbliğat tədbirləri keçirəcək və seçicilərin seçki prosesinə fəal qoşulması istiqamətində silsilə görüşlər təşkil edəcək. Eyni zamanda, rayon təşkilatı tərəfindən təbliğat-təşviqat kampaniyası çərçivəsində hazırlanmış videoçarxın yayımlanması nəzərdə tutulub.

## Füzuli

11 aprel 2018-ci il tarixində keçiriləcək Prezident seçkisinin təbliğat-təşviqat mərhələsinə start verilib. Bütün seçki proseslərində olduğu kimi, Prezident seçkisində də xüsusi fəallığı ilə seçilən, ölkənin ictimai-siyasi həyatında aparıcı qüvvə olan Yeni Azərbaycan Partiyası növbəti seçkilərə də




yüksək ab-hava ilə başlayıb.

“İlhamla irəli” devizi ilə təşviqat kampaniyasına uğurla başlayan Yeni Azərbaycan Partiyasının Mərkəzi Seçki Qərargahının Füzuli rayon şöbəsi 11 aprel 2018-ci il tarixdə keçiriləcək Azərbaycan Respublikası Prezident seçkiləri ilə əlaqədar 19 mart 2018-ci il tarixdə rayonun bütün seçki məntəqələrində Prezident seçkiləri ilə əlaqədar operativ fəaliyyətə başlayıb.

YAP Füzuli rayon təşkilatının sədri Almaz Həşimova bildirdi ki, şəhər təşkilatının fəalları seçki plakatlarının seçki lövhələrinə yerləşdirilməsini az bir vaxtda və qanunuyğun şəkildə həyata keçirmişlər.

Almaz Həşimovanın sözlərinə görə, füzulilər 11 aprel Prezident seçkilərində Prezident İlham Əliyevi böyük səs çoxluğu ilə dəstəkləyəcəklər. Ona görə ki, xalqımız Prezidentin 14 illik fəaliyyətini yüksək qiymətləndirir. Məhz onun qətiyyətli siyasi fəaaliyyəti nəticəsində Azərbaycan dövləti bu gün beynəlxalq aləmdə güc və söz sahibi olub.

## Astara

YAP Astara rayon təşkilatı aprelin 11-də ölkəmizdə keçiriləcək prezident seçkiləri kampaniyasının təşviqat prosesinə uğurla start verib.




Rayon təşkilatının fəalları YAP-ın namizədi cənab İlham Əliyevin təbliğat plakatlarını qanunvericiliyə uyğun olaraq müəyyənləşdirilmiş ərazilərdəki lövhələrə vurulub.

Gün ərzində bu proses yekunlaşdırılıb.

# Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyev seçkilərdə növbəti dəfə parlaq qələbə qazanacaq

## *Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini, YAP Siyasi Şurasının üzvü Musa Quliyevin yap.org.az-a müsahibəsi*

***- Musa müəllim, aprelin 11-də ölkəmizdə prezident seçkiləri keçiriləcək. Azərbaycan dövləti və xalqı bu seçkilərə hansı uğurlarla gedir?***



- Azərbaycan dövləti və xalqı, o cümlədən Yeni Azərbaycan Partiyası qarşıdan gələn prezident seçkilərinə böyük uğurlarla gedir. Cənab İlham Əliyevin Prezidentliyi dövründə Azərbaycan bütün sahələrdə misilsiz nailiyyətlər qazanıb.

İlk növbədə, ölkəmizdə güclü ictimai-siyasi sabitlik mövcuddur və vətəndaş həmrəyliyi var. Təbii ki, son 15 ildə sosial-iqtisadi, humanitar, mədəni və digər sahələrdə əldə olunan böyük uğurların əsasında sabitlik dayanır. Həmçinin, Azərbaycanda lider-xalq birliyigücüdür. Xalqımız öz liderinə inanır, liderimiz də xalqın maraqlarını ləyaqətlə təmsil edir.

Azərbaycan qanunun aliliyinin qorunduğu hüquqi-demokraik dövlətdir, ölkəmiz qanunlarla idarə olunur. Eləcə də, vətəndaşların ictimai-sosial həyatı hərtərəfli təmin olunub.

Ötən 15 ildə iqtisadiyyatımız 3,2 dəfə artıb, 1,9 milyon yeni iş yeri açılıb. Qeyri-neft iqtisadiyyatı isə 2,8 dəfə artıb. Sənaye sahəsində 2,6 dəfə, kənd təsərrüfatında 1,7 dəfə, qeyri-neft ixracında isə 4,1 dəfə artım var. Sahibkarlara güzəştli şərtlərlə 2 milyard manatdan çox kreditlər verilib. Ölkəmizin yaşayış məntəqələrinin qazlaşdırılması 51 faizdən 93 faizə çatdırılıb. Bu dövrdə 3 mindən çox məktəb, 600-dən artıq tibb müəssisəsi tikilib istifadəyə verilib və ya yenidən qurulub. Maaşlar 5, pensiyalar 8 dəfə artıb. İşsizlik 5 faiz təşkil edir, yoxsulluq 50 faizdən 5,4 faizə enib. Bu yaxınlarda dövlət başçısı tərəfindən əməkhaqlarının, pensiyaların, sosial müavinətlərin artırılması əhalinin rifah halını daha da yüksəldəcək.

Həmçinin, uşaq və gənclərin sağlam həyat sürməsi, ölkəmizdə güclü idmançı nəslinin yetişməsi üçün 43 Olimpiya İdman Kompleksi inşa olunub. 265 min köçkün yeni evlərlə, mənzillərlə təmin edilib. Əlbəttə ki, bütün bunlar Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən genişmiqyaslı işlərin bir hissəsidir.

Son 15 ildə Azərbaycanın təşəbbüsü və dəstəyi ilə böyük, transmilli iqtisadi, enerji və nəqliyyat layihələri bütün dünya üçün böyük əhəmiyyət kəsb etməklə, regionun inkişafına layiqli töfhələr verir.

Faktlardan da göründüyü kimi ölkəmiz hərtərəfli inkişaf edir. Xüsusilə, qeyri-neft sektorunun inkişafı vurğulanmalıdır. Son illər kənd təsərrüfatı, turizm, nəqiliyyat, İKT sahələrində qazanılan uğurlar ölkəmizə dividentlər gətirir. Bütün bunlar xaricdən asılılığı azaldır, idxalçıdan ixracatçıya çevrilirik. Son illər ixrac balansında müsbət saldo formalaşıb. ÜDM-nin üçdə iki hissəsi qeyri-neft sektorunun hesabına formalaşır. Bu o deməkdir ki, Azərbaycan bundan sonrakı illərdə də qeyri-neft sektorunun inkişafı hesabına daxili tələbatını əhəmiyyətli dərəcədə təmin edəcək.

Bütün bunların fonunda xalqımız prezident seçkilərinə özünün gələcək ümidlərinin reallışdırılması kimi baxır. Qarşıya qoyulan hədəflərə çatmaq, Azərbaycanın bölgədə və dünyada qüdrətinin artması, ərazi bütövlüyümüzün təmin olunması, qaçqın və məcburi köçkünlərin öz yurdlarına qayıtması qarşıda duran vəzifələrimiz sırasındadır.

Əminəm ki, 11 aprel seçkiləri azad, demokratik və şəffaf keçiriləcək. Və Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev növbəti dəfə parlaq qələbə qazanacaq. Beləliklə, növbəti 7 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə xalqımız, dövlətimiz daha böyük nailiyyətlər qazanacaq.

***- Siz Milli Məclisin Səhiyyə komitəsinin sədr müavinisiniz. Prezident İlham Əliyevin siyasəti nəticəsində səhiyyə sahəsində nə kimi uğurlar əldə edilib?***

- Azərbaycanda Prezident İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq davamlı şəkildə həyata keçirilən geniş məzmunlu sosial siyasətin fonunda səhiyyə sahəsində reallaşdırılan islahatlar xüsusilə diqqəti cəlb edir. Belə ki, əhalinin gündəlik həyatı, bilavasitə sağlamlığı ilə bağlı olan səhiyyə sahəsində yeniliklər istər bu sahədə qanunvericilik bazasının daha da möhkəmləndirilməsində, istərsə də müasir infrastrukturun qurulmasında və kadr hazırlığına diqqətin daha da artırılmasında öz əksini tapıb.

Bununla bağlı konkret faktlara keçməzdən öncə bildirim ki, ölkəmizdə səhiyyə sahəsində həyata keçirilən məqsədyönlü islahatlar, o cümlədən tibb müəssisələri şəbəkəsinin və strukturun təkmilləşdirilməsi, onların maddi-texniki bazasının möhkəmləndirilməsi nəticəsində əhalinin sağlamlığının qorunmasında və tibbi xidmətin səviyyəsinin yüksəlməsində əsaslı keyfiyyət dəyişikliyi baş verib. Öz növbəsində səhiyyənin prioritet sahələri üzrə qəbul edilən Dövlət proqramları çərçivəsində reallaşdırılan tədbirlər bu sahədə vəziyyəti əsaslı şəkildə yaxşılaşdırıb.

Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, Prezident İlham Əliyevin diqqət və qayğısının nəticəsində Azərbaycanın səhiyyə sistemində aparılan uğurlu islahatların, tibb müəssisələrinin maddi-texniki bazasının təkmilləşdirilməsinin, təchizat və kadr hazırlığı ilə bağlı görülmüş işlərin bəhrəsini bu gün hər bir vətəndaş öz həyatında hiss edir. Görülən işlər əhalinin dövlət tibb müəssisələrinə inamını getdikcə artırır. Dövlətimizin başçısının səhiyyə sahəsində müəyyən etdiyi proqramlar tibb müəssisələrinin təmir və bərpasının, onların ən müasir avadanlıqlarla təchiz olunmasının, vətəndaşların pulsuz dərman vasitələri və preparatlarla təminatının və müalicəsinin, regionlarda diaqnostika mərkəzlərinin tikilərək istifadəyə verilməsinin, xüsusilə uşaqların bütün tibbi xidmətlərlə ən yüksək səviyyədə əhatə olunmasının başlıca istiqamətlərini təşkil edir.

Onu da qeyd edim ki, ölkəmizdə səhiyyə sahəsində bir sıra Dövlət proqramlarının reallaşdırılmasında Heydər Əliyev Fondunun müstəsna xidmətləri var. Fond diabetli, talassemiyalı xəstələrə qayğısında və onların müalicəsinin təşkilində, qanvermə aksiyalarının keçirilməsində, ana və uşaqların sağlamlığının qorunması işinin yaxşılaşdırılmasında bir çox böyük layihələrə imza atıb.

Hazırda da səhiyyə sistemində islahatlar davam edir. Səhiyyə sisteminin islahatları nəticəsində əsasən stasionar yardıma istiqamətləndirilmiş təbabətdən ilkin tibbi-sanitariya yardımının üstünlük təşkil etdiyi təbabətə keçilməsi reallaşdırılır, ailə həkimi praktikasının genişləndirilməsinə müvafiq şərait yaradılır. Hazırda səhiyyədə icbari tibbi sığorta sisteminin tətbiq olunması istiqamətində də işlər gedir.

Bunlarla bərabər, ölkəmizdə əsas həyati vacib dərman preparatlarının bütün əhali qrupları üçün fiziki və iqtisadi cəhətdən əlçatan olmasının, həmçinin dərman preparatlarının keyfiyyəti, səmərəliliyi və təhlükəsizliyinin təmin edilməsi məqsədilə onların vahid qeydiyyat sisteminin yaradılması üçün zəruri tədbirlər görülür. Dərman bazarına lisenziyalaşmamış və aşağı keyfiyyətli dərman preparatlarının daxil olmasının qarşısının alınması istiqamətində əməli addımlar atılır.

Bir sözlə, bu gün ölkədə səhiyyənin prioritet sahələri üzrə qəbul olunmuş Dövlət proqramlarının icrası uğurla davam etdirilir. Və bütün bunların fonunda eyni zamanda Azərbaycanda səhiyyə sistemina dövlət büdcəsindən ayrılan vəsaitin həcmi 2003-cü illə müqayisədə 10 dəfədən çox artırılıb. Məhz bu artım əsasında son 15 ildə respublikamızda 600-dən çox tibb müəssisəsi yaradılaraq və ya yenidən qurularaq əhalinin istifadəsinə verilib. Bu müəssisələrin əksəriyyətinin açılış mərasimlərində Azərbaycan Respublikasının Prezidenti şəxsən iştirak edib. Bu işlər qarşıdakı illərdə də davam etdiriləcək.

***- Bildiyimiz kimi, inkişaf və quruculuq siyasəti nəticəsində ölkəmizin regionlarında da böyük tərəqqiyə nail olunub. Bu baxımdan, təmsil etdiyiniz Gəncə şəhərinin sosial-iqtisadi inkişafı haqqında nə deyə bilərsiniz?***

- Əlbəttə ki, respublikamızın hərtərəfli inkişafı regionlarda da özünü əyani şəkildə göstərir. Bu baxımdan, Gəncə şəhəri və bütövlükdə qərb bölgəsi dinamik inkişaf edir. 2004-cü ildən həyata keçirilən regionların sosial-iqtisadi inkişafı dövlət proqramları nəticəsində Gəncə şəhəri böyük inkişaf yolu keçib. Əgər 15-20 il əvvəlki vəziyyəti xatırlasaq ki, bölgələrdə sosial problemlər, işıq, qaz, yol problemləri var idi. İndi problemlər həll olunub. Nəinki rayon mərkəzlərinə, kəndlərə müasir yollar çəkilir, qazlaşdırma səviyyəsi 93 faizə çatıb, elektrik enerji problemi demək olar ki, yoxdur.

Gəncə şəhərində də bu problemlər həllini tapıb. Son illər şəhərdə çoxlu yeni iş yerləri açılıb, yeni zavodlar, fabriklər, istehsal müəssisələri yaradılıb. Eləcə də, sosial obyektlər tikilib istifadəyə verilib. Təhsil, səhiyyə, idman, turizm infrastrukturu yenidən qurulur.

Cənab Prezident İlham Əliyev 2017-ci ildə Gəncəyə səfəri zamanı Gəncə Dövlət Filarmoniyasının yeni binasının açılışında iştirak edib, "Majestic Palace" otelinin tikintisi ilə, "Gəncə Mall" Ticarət Mərkəzində yaradılan şəraitlə, İsmət Qayıbov adına Gəncə şəhər 1 saylı tam orta məktəbin binasında aparılan əsaslı təmir və yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olub, Azərbaycan Dövlət Aqrar Universitetinin tələbələri üçün yeni inşa edilmiş 514 yerlik yataqxana kompleksinin, "Grand Qafqaz" Ticarət Kompleksinin, Mirzə Şəfi Vazeh muzeyinin, görkəmli dövlət xadimi Əziz Əliyevin adını daşıyan mədəniyyət və istirahət parkının, "Yeni Gəncə" yarımstansiyasının açılışında iştirak edib, müvafiq tapşırıq və tövsiyələrini verib.

Bundan sonra da Gəncə şəhərində quruculuq işləri uğurla davam etdiriləcək. Bütövlükdə, qərb bölgəsi ölkənin harmonik inkişfında aparıcı yerlərdən birini tutur. Gəncə əhalisi dövlətimizin siyasətini dəstəkləyir və qarşıdan gələn prezident seçkilərində seçimləri məhz cənab İlham Əliyevdir.

***- Musa müəllim, seçkilərin təbliğat-təşviqat kampaniyası çərçivəsində seçicilərlə görüşlərdə iştirak edirsiniz. İnsanların seçki əhval-ruhiyyəsi necədir?***

- Əlbəttə ki, seçkilərin təbliğat-təşviqat kampaniyası çərçivəsində seçicilərlə görüşlərdə iştirak edirik. Görüşlər zamanı insanlar birmənalı olaraq cənab İlham Əliyevə səs verəcəklərini bildirirlər. Onlar deyirlər ki, bu təbliğat tədbirlərinə elə də ehtiyac yoxdur, çünki cənab Prezidentin gördüyü işlər göz önündədir. Yəni insanlarda dövlətimizin başçısına sonsuz inam, etimad görürük. Çünki Prezident İlham Əliyevin siyasəti milli maraqlarımıza xidmət edir. Dövlət başçısı hər zaman bütün məsələlərdə ölkəmizin, vətəndaşlarımızın maraqlarını öndə tutur.

Ümumilikdə, xalqımız 11 aprel seçkilərinə tam hazırdır. Dövlətimizin həyata keçirdiyi siyasəti dəstəkləyən xalqımızın bu seçkilərdə cənab İlham Əliyevə səs verəcəyi şübhəsizdir.


Novruz
bayramınız
mübarək!
BANK BTB


NOVRUZ
SEVİNCİNİ PAYLAŞ
Coca-Cola
Coca-Cola

# 20 mart - Ümumdünya Ağız Sağlamlığı Günüdür

Hər il 20 mart tarixində Ümumdünya Diş Həkimləri Federasiyasının təşəbbüsü ilə bütün dünyada Ümumdünya Ağız Sağlamlığı Günü - World Oral Health Day keçirilir. Həmin gün dünya ictimaiyyətinin diqqəti ağız boşluğu sağlığına, xüsusi olaraq isə, gigiyena və profilaktikanın əhəmiyyəti istiqamətinə yönəlir. 2018-ci ildə WOHD-un əsas mövzusu gözəl təbəssümünün və ağız boşluğu sağlamlığının ictimai rəydə insanın həyatında özünəinamının, xoşbəxtliyinin simvolu olaraq, qəbul edilməsi əsasında qurulub. Həmin gün bir hədəfə hesablanmış digər əhəmiyyətli mövzuların - insanların ümumi sağlamlığını və firavanlığını təmin edən ağız boşluğu gigiyenasının daha da təkmilləşdirilməsi ətrafında müzakirələrin aparılması əhəmiyyət kəsb edir.

### Körpə vaxtlardan stomatoloji sağlamlığın və dispanser müşahidənin əhəmiyyəti barədə - uşaqlıqdan gözəl təbəssüm!

Bir çox valideynlər artıq uşaqlarının kiçik yaşlarından özlərinə bu cür sual verirlər: “Uşağı ağız boşluğu gigiyenasına necə öyrətməli?” Bu məsələdə müasir stomatoloq-mütəxəssislər bəyan edirlər: əsas necə deyil, əsas nə zamandır. Çünki körpələrin ağız boşluğunun yuyulması və təmizlənməsi prosesində onun fəaliyyətini korrektə etmək olar. Axı inanmaq olmaz ki, 2 yaşlı uşaq valideynlərinin ona öyrətdiyi həmin manipulyasiyaları təkrar edə bilsin. Ümumiyyətlə, uşaq gigiyenasının onların anlamağa başladıqları vaxtlardan yaranmasını düşünmək yanlış fikirdir. Uşaqların ağız boşluğu gigiyenasına onların ilk dişləri çıxmağa başladığı andan başlamaq lazımdır. Nə qədər ki, siz, valideyn olaraq, daha erkən vaxtlardan uşağınıza öz gigiyenası ilə məşğul olması amilini aşılayacaqsınız, gələcəkdə həmin uşağın stomatoloq kabinetlərini ziyarət etməsi prosesi daha az olacaq. Uşaq gigiyenası özündə 5 əsas qanunu ehtiva edir:

X Ağız boşluğuna qulluq ilk dişin çıxdığı vaxtdan başlayır;




X Əgər uşağın dişlərində infeksion prosesi başlayarsa, bu zaman valideynlər dərhal onu ləğv etməlidirlər. Süd dişlərində kariyesin müalicəyə ehtiyacının olmamasını düşünmək doğru deyil. Çünki bu patologiya uşaq dişlərində sürətlə inkişaf edir və ona görə, hətta mina üzərindəki ən kiçik nöqtə ciddi fəsadlara gətirib-çıxara bilər. Xüsusilə, belə hal daimi dişləri çıxmağa başlayan uşaqlar üçün təhlükəlidir.

X Uşaqların ağız boşluqlarının gigiyenası gün ərzində, iki dəfə xüsusi olaraq, onlar üçün hazırlanmış fırça və minimum ftor, eləcə də, mentol tərkibli diş pastası ilə həyata keçirilir.

X Uşaqlara daha erkən vaxtlardan öyrədilməlidir ki, şirin qidalar sonradan dişlərdə ciddi problemlərin inkişafına və xəstəliklərin yaranmasına səbəb olur. O cümlədən, qazlı və şirin içkilər də mümkün qədər minimuma endirilməlidir.

X Uşaq stomatoloji kabinetini ildə minimum 2 dəfə ziyarət etmək lazımdır. Uşaqlarda elə fikir formalaşdırmaq lazımdır ki, onlar stomatoloqun yaxşı və lazımı həkim olduğunu dərk etsinlər və qəbul etsinlər ki, diş həkimi onların ağız boşluğuna düzgün qulluq etmələrinə yardımçı olur.

### Uşaqların gigiyena əşyalarını necə seçməli?

Uşaq diş fırçası yumşaq və uzunluğu 2 sm-i keçməyən qısa tükcüklərdən ibarət olmalıdır. Bu, çox mühümdür, çünki körpənin ağız boşluğuna qulluq zamanı böyüklər üçün hazırlanmış diş fırçası ona müəyyən narahatlıqlar və ağrılar verə bilər. Diş məcunu noxud dənəciyi, qədərdən artıq olmayaraq, fırça üzərinə sıxmaq lazımdır. Xüsusilə, diqqət yetirin ki, uşaq diş məcununu udmasın, əks halda, bu, arzuolunmaz qıcıqlanmalara, hətta bəzən disbakterioza gətirib-çıxara bilər. Diş daşının əmələ gəlməsi təhlükəsində siz, satış məntəqələrində uşaqlar üçün hazırlanmış xüsusi diş saplarına rast gələ bilərsiniz. Onlar aromatlaşdırılmış, yaxud neytral qoxulu ola bilərlər. Əsas isə, budur ki, bu cür qulluq körpənizin xoşuna gəlsin. Uşağa ağız boşluğunun gigiyenasını öyrətməmişdən öncə, onu ilk olaraq, özünüz üzərində nümayiş etdirin və bu prosesin, ümumiyyətlə ağrısız, eləcə də, əhəmiyyətli prosedur olduğunu aşılayın. Bax, onda nə sizin, nə də körpənizin dişlərində heç bir problem yaşanmayacaq.




Onu da qeyd edim ki, Azərbaycan Stomatoloji Assosiasiyası 20 illdir Ümumdünya Diş Həkimləri Federasiyasının daimi üzvüdür və beləliklə, dünyada keçirilən bu işi Azərbaycanda da keçiririk, yəni 20 mart - Ümumdünya Ağız Sağlamlığı Gününü əhali arasında keciririk. Çünki bu, eyni zamanda, insanların maariflənməsinə xidmət edə biləcək bir məsələdir. Ümumiyyətlə, belə layihələrin həyata keçirilməsi hər zaman vacibdir. Ona görə də, bizlər stomatoloq olmaqla, eyni zamanda, çalışırıq ki, insanların üzlərindəki təbəssüm daimi olsun. Çünki sağlam dişlər və sağlam ağız boşluğu hər bir insanın, bütövlükdə sağlam ruhda yaşamasına, öz həyatını sağlam şəkildə müəyyənləşdirməsinə təkan verir. Məhz bu baxımdan, hər bir insana bu ümdə arzumuzu çatdırırıq və Ümumdünya Ağız Sağlamlığı Günü münasibəti ilə təbrik edirik.

***Rəna Əliyeva,***
***Azərbaycan Tibb Universitetinin kafedra müdiri, Azərbaycan Stomatologiya Assosiasiyasının prezidenti***




## YAP Səbail rayon təşkilatının idarə heyətinin iclası keçirilib

Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatının idarə heyətinin iclası keçirilib. İclasda 11 aprel prezident seçkiləri ilə əlaqədar rayon təşkilatının vəzifələri, o cümlədən, ərazi ilk partiya təşkilatlarının siyasi məsuliyyətinin, siyasi mədəniyyətinin və fəallığının artırılması, YAP üzvlərinin partiya intizamının daha da möhkəmləndirilməsi, YAP Mərkəzi Seçki Qərargahının Səbail rayon şöbəsinin qərargah üzvləri arasında iş bölgüsü, təbliğat-təşviqat kampaniyası çərçivəsində görüləcək işlər və gündəlikdə duran digər cari məsələlər müzakirə edilib.

Çıxış edən YAP Səbail rayon təşkilatının sədri, Milli Məclisin deputatı Şəmsəddin Hacıyev məlumat verib ki, 19 mart tarixində başlayan rəsmi təbliğat-təşviqat kampaniyasına qədər rayon təşkilatından tələb olunan bütün işlər operativ və səliqəli şəkildə icra olunmuşdur: “Bu günümüzü təmin edən, işıqlı edən Ulu Öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirən cəsarətli, uzaqgörən, müdrik, ümumxalq məhəbbətini qazanmış Möhtərəm İlham Əliyevin prezidentliyə namizədliyi Azərbaycanın müstəqillik dövründə əldə olunmuş bütün misilsiz siyasi, iqtisadi, hərbi uğurlarda əvəzolunmaz rolu və payı olan Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülmüşdür. Əminik ki, bu seçkiləri də, həmişə olduğu kimi, parlaq qələbə ilə başa vuracağıq. Bu məqsədlə geniş fəaliyyət planı hazırlanmış və bütün fəaliyyət istiqamətləri üzrə idarə heyəti üzvləri və Səbail rayon şöbəsinin üzvləri arasında iş bölgüsü aparılmışdır”.

Müzakirələrdən və müvafiq əlavə və düzəlişlərdən sonra 11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Səbail rayon şöbəsi tərəfindən seçicilərlə keçiriləcək tədbirlərin qrafiki və qərargah üzvləri arasında iş bölgüsü yekdilliklə təsdiq olundu.

Sonra “1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında” Azərbaycan Respublikasının Prezidentinin 18 yanvar 2018-ci il tarixli Sərəncamına əsasən, YAP Səbail rayon təşkilatı tərəfindən keçirilməsi nəzərdə tutulan tədbirlər haqqında məlumat verildi.

İclasda, həmçinin, yeni təsis edilən ərazi ilk partiya təşkilatlarından daxil olan müraciətlərə baxıldı. Azərbaycan Respublikası Hesablama Palatasında yeni təsis edilən “Dövlət auditi”, AMEA-nın Botanika İnstitutunda yeni təsis edilən “Botanik” və AMEA-nın Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunda yeni təsis edilən “Sünbül” ərazi ilk partiya təşkilatlarının qeydiyyata alınması barədə qərar yekdilliklə qəbul olundu. Sədr məlumat verdi ki, partiyanın təşkilatlanmasının gücləndirilməsi və partiya sıralarının Cənab Prezidentin siyasətinə bağlı olan və partiya Nizamnaməsinə sədaqətlə xidmət edən yeni üzvlər, xüsusilə, gənclər hesabına genişləndirilməsi YAP Səbail rayon təşkilatının gördüyü çoxşaxəli işlər arasında xüsusi önəm kəsb edir.

Sonra cari məsələlər müzakirə olunaraq, müvafiq qərarlar qəbul edildi.

İclasa yekun vuran Ş.Hacıyev xalqımızın çoxəsrlik milli-mənəvi ənənələrini özündə təcəssüm etdirən bolluq, bərəkət, xeyirxahlıq, yenilik və gözəllik rəmzi olan Novruz bayramı münasibətilə YAP Səbail rayon təşkilatının bütün üzvlərini təbrik etdi və hamıya möhkəm cansağlığı, ailə səadəti, ruzi-bərəkət, və ölkəmizin davamlı inkişafı naminə məsuliyyətli və şərəfli ictimai-siyasi fəaliyyətlərində yeni-yeni uğurlar arzuladı.

**NƏZAKƏT**

# Müxalifətin rüsvayçılıq tarixi...

*1993-cü ildən indiyədək keçirilən bütün seçkilərdə dağıdıcı qüvvələr biabırçı məğlubiyyətlərə uğrayıblar*

Uzun illərdir dağıdıcı müxalifət qalmaqallarla gündəmdə qalmağa cəhd göstərir. Bunun da əsas səbəbi həmin partiyalarda islahatların keçirilməməsi və partiyaların yeni təşəbbüslərlə çıxış etməməsidir. Bunun da nəticəsi olaraq, müxalif partiyalar öz elektoratını tamamilə itiriblər. Bəziləri də artıq seçki kampaniyası aparmağa gücləri çatmadığına görə, seçki ərəfəsində bəyan etdilər ki, güya seçkiləri boykot edirlər. Ümumiyyətlə, seçkiləri boykot etmək mümkün deyil. Çünki seçkinin taleyini ayrı-ayrı partiyalar deyil, xalq müəyyənləşdirir. Bizim istər seçki qanunvericiliyimiz, istərsə də seçki təcrübəmiz dünyanın ən qabaqcıl ölkələri səviyyəsindədir.

Seçkilər öncəsi ənənəvi müxalifət partiyaları arasında qalmaqallar davam edir. Boykot edən siyasi təşkilatlarla seçkilərə qatılmaq iddiasında olan partiyalar bir-birilərini müxtəlif məsələlərdə ittiham edirlər. Bu oyunun oyunçuları və icraçıları arasında isə yarıgizli-yarıaşkar mübarizə gedir. İddia olunur ki, AXCP-Müsavat qarşıdurması müxalifətin parçalanmasını və zəif düşməsini şərtləndirən əsas amillərdəndir. Partiyadaxili savaşdan əlavə, bu iki partiya illərdir birbirini sıradan çıxarmaqla məşğuldur. Mövzunun köhnəlmiş və çeynənmiş olmasına rəğmən, hər iki partiyanın rəhbərliyi hələ də qarşı tərəfi "satqın" ittihamı ilə atəşə tutur. Hər iki tərəf yenə də "satqınlıq", "xəyanətkar" ittihamı səbəbindən qarşı-qarşıya dayanıb. 1998-ci il prezident seçkiləri dövrünü götürək. Həmin ərəfələrdə müxalifət "SİDSUH" adlanan təşkilatda birləşmişdi. Lakin AXCP və Müsavat "vahid namizəd" məsələsində ümumi fikrə gələ bilmədi, nəticədə, qarşılıqlı ittihamlar ifrat həddə qədər inkişaf etdi. Nəhayət, biri digərinə güzəştə getməyən hər iki siyasi partiya bir-birini hakimiyyətə işləməkdə suçlayaraq, "boykot" taktikasını seçdi. Bununla da, "SİDSUH" adlı qurumun fəaliyyətinə son qoyulmuş olur.

"SİDSUH" - parçalanmanın əsasını qoyan "hərəkat" kimi müxalifətin rüsvayçılıq tarixinə yazıldı. "Demkonqres" və "Azadlıq" seçki blokları da eyni aqibəti yaşadılar. Beləliklə, illər boyu bu düşmən və bir-birilərinə patoloji nifrət edən parityaları son nəticə etibarilə guya "Milli Şura" bir araya gətirib çıxardı. Ancaq burada da uzun müddət duruş gətirə bilməyən Müsavat AXCP-ni Rusiyaya satılmaqda ittiham edərək, oradan uzaqlaşdı. Beləliklə, məsələ tamamilə aydındır. Guya zaman-zaman barışıq axtarışına çıxan hər iki partiyada təmsil olunanlar nəticə etibarilə daha betər düşmən tərəflərə çevrilirlər. Bu isə, sonu olmayan bir yola bənzəyir. Heç də təsadüfi deyil ki, 1993-cü ildən indiyədək keçirilən bütün seçkilərdə həmin qüvvələr biabırçı məğlubiyyətlərə uğrayıblar. Artıq məğlubiyyətləri ilə barışan AXCP-Müsavat başbilənləri Avropadan gələn ianənin azlığını nəzərə alıb, alver taktikalarını dəyişiblər. Yeni mühacir biznesinə girişiblər. Hüquq müdafiəçisi Azər Həsrət mətbuata açıqlamasında bildirib ki, dağıdıcı müxalifətin bu etiraz aksiyaları siyasi iddalarını təşkil etmək üçün düşünülməyib. Onlar bununla mühacir biznesini genişləndirmək istəyirlər: "Çünki etiraz aksiyalarında yeni şəkillər çəkəcəklər və arayışlar alacaqlar. Birmənalı olaraq, deyirəm ki, müxalifətin bu etiraz aksiyaları xaricdən sığınacaq almaq üçün nəzərdə tutulub. Son vaxtlar xaricdə sığınacaq alıb Azərbaycan dövlətçiliyinin əleyhinə çıxış edənlər haqqında araşdırma apardım. Məlum oldu ki, həmin adamların Milli Azadlıq Hərəkatında və demokratikləşmə hərəkatında heç bir rolu olmayıb. Heç kim də onları şəxsən tanımır. Amma onlar iddia edirlər ki, Azərbaycanda demokratikləşmə uğrunda gedən mübarizələrdə iştirak etdiklərinə görə sıxışdırılıblar və ona görə də, ölkədən qaçıblar. Bu kimi mitinqlər xaricdə sığınacaq almış həmin şəxslərin özlərinə yeni imkanlar alması üçün nəzərdə tutulub. Bunu mitinqin təşkilatçıları çox gözəl bilir. Onlar arayışları da pul ilə satırlar. Buna görə də, bizneslərini inkişaf etdirmək istəyirlər".



***"Səs" Analitik Qrupu***




"AtaBank" ASC

Azərbaycan xalqını Novruz bayramı münasibətilə təbrik edir, xoşbəxtlik və sevinc dolu günlər arzulayır

## El qənim olsun!

Özünün başına uçurdu damı,
Vidadi böhtançı qələmindədir.
Tural Sadıqlıdı Serjin adamı,
Sevinc Osmanqızı öz dəmindədir.

Söyüş söyənləri yaxından tanı,
Həbib Müntəzirlə Emin özüdür.
Xədicə doldurub cibişdanını,
Gözləri alaca dana gözüdür.

Leylanı, Yunusu çıxarma yaddan,
Hər biri sümürüb dollar əmən tək.
Keçər cəzaları küləkdən, oddan,
Qovuşar yoxluğa şər Əhrimən tək.

Dövlət əleyhinə artmaqda səslər,
Məhəmməd, Orduxan qızıxmış gavur.
Erməni puluna qızınan kəslər,
Bayram tonqalında yanar gurhagur.

Düşüblər şeytanın min bir oynuna,
Onlara şimşəklər, sel qənim olsun.
Etdiyi qarğışlar düşsün qoynuna,
Dönüklər nəslinə el qənim olsun!

***VALEH***

# Vladimir Putin budəfəki prezident seçkilərində rekord səs toplayıb

Rusiyanın hazırkı prezidenti Vladimir Putin bülletenlərin 99,84 faizinin hesablanmasından sonra 76,66 faiz səs toplayıb. AZƏRTAC Rusiya KİV-lərinə istinadla xəbər verir ki, bunu Mərkəzi Seçki Komissiyasının sədri Ella Pamfilova jurnalistlər üçün keçirilən brifinqdə bildirib. Onun sözlərinə görə, Putin 56 milyon 206 min 514 seçicinin (76,66 faiz) etimadını qazanıb. Bu, onun seçkilərdə iştirakı tarixində rekord göstəricidir. Belə ki, 2000-ci ildə Vladimir Putini seçicilərin 52,94 faizi, 2004-cü ildə 71,31 faizi, 2012-ci ildə isə 63,6 faizi dəstəkləmişdi. Rusiyanın hazırkı prezidenti paytaxt Moskvada da böyük dəstək qazanıb - 3,21 milyon səs. Bu, 2012-ci illə müqayisədə 1,6 dəfə çoxdur.




Rusiya Kommunist Partiyasının namizədi Pavel Qrudin 11,9 faiz, Liberal-Demokrat Partiyasının lideri Vladimir Jirinovski 5,66 faiz, teleaparıcı Ksenya Sobçak 1,67 faiz, "Yabloko" partiyasının lideri Qriqori Yavlinski 1,04 faiz səslə səs toplayıb. Digər iki namizəd bir faizdən az səs yığıb. Martın 18-də Rusiyada keçirilən prezident seçkilərində səsvermə hüququ olan vətəndaşların 67,47 faiz - 73,36 milyon seçici iştirak edib.

# Seçkiləri səmərəli müşahidə etmək üçün Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun irəli sürdüyü şərtlər

***DTİHB-nin seçki prosesini uzunmüddətli müşahidə mandatına müvafiq olaraq, ATƏT-in iştirakçı dövlətləri seçkilərə, ən azı üç ay qalmış DTİB-ni xəbərdar etməlidirlər. Əvvəlcədən belə bir xəbərdarlıq edilmədikdə, DTİHB müşahidə üçün dövətə müsbət cavab vermək iqtidarında olmaya bilər. DTİHB belə bir nöqteyinəzərlə razı deyil ki, müşahidəçinin adicə iştirakı seçki prosesinin legitimliyini təmin edir. Seçki haqqında rəy müşahidə metodologiyası və sonrakı qənaətlər əsasında yaranır. Belə bir qənaətə gəlmək üçün DTİHB qəbul olunmuş beynəlxalq standartlara, müvafiq olaraq, dəvət edən hökumətdən DTİHB-nin müşahidəçilərdən ibarət nümayəndə heyətinin öz vəzifələrini yerinə yetirmək iqtidarında olacağı barədə təminat gözləyir. Həmin vəzifələr bunlardır:***

* lazımi sayda müşahidəçiləri qiymətləndirmək. Bu, dəvət edən hökumətlə müzakirə olunmur;

* adi və ayrı-seçkilikdən uzaq proses vasitəsilə akkreditə almaq;

* seçki prosesi barədə bütün səviyyələrdən olan seçki rəhbərliyindən informasiya almaq;

* bütün partiyaların nümayəndələri və təsadüfi seçki metodu ilə seçilmiş adamlarla görüşmək;

* bütün seçkilər ərzində və bilavasitə, seçkilər günü ölkənin bütün regionlarına getməyə icazə almaq;

* bütün ölkə ərazisində seçki məntəqələrinə və səslərin hesablanması mərkəzlərinə maneəsiz daxil olmaq imkanı əldə etmək;

* kütləvi bəyanat hüququna malik olmaq.

Aşağıda bütün müşahidəçilərin riayət etməli olduqları bəzi ümumi prinsiplər və qaydalar sadalanır:

* müşahidəçilər öz vəzifələrini yerinə yetirərkən, qərəzsizliyə ciddi şəkildə əməl etməli və iqtidara, partiyalara, namizədlərə, yaxud seçkilər prosesində meydana çıxan mübahisəli məsələlərə münasibətdə əvvəlcədən yaranmış yanlış rəy və ya rəğbət bildirməməlidirlər;

* müşahidəçilər öz vəzifələrini yerinə yetirərkən heç kəsi nəyəsə vadar etməməlidirlər, seçki prosesinə, seçki günündəki prosedurlara və ya səslərin hesablanmasına müdaxilə etməməlidirlər;

* müşahidəçilər hökumətin, yaxud seçki komissiyasının verdiyi vəsiqəni özlərində saxlamalı və tələb edildikdə, özlərini marağı olan bütün hakimiyyət nümayəndələrinə təqdim etməlidirlər;

* müşahidəçilər hansısa partiyaya məxsus rəngin rəmzini, yaxud etiketini özlərilə gəzdirməməlidirlər;

* müşahidəçilər yerli hakimiyyət orqanlarının diqqətini qaydalara riayət olunmamasına yönəldə bilərlər, amma onlar heç vaxt seçki hakimiyyətinin qərarlarına zidd olan təlimat verməməli və ya hərəkət etməməlidirlər;

* müşahidəçilər özlərinin bütün qənaətlərini yaxşı sənədləşdirilmiş, mötəbər və yoxlanıla bilən faktlara əsasən, qurmalı və statistik icmal formasını olduqları seçki məntəqəsində doldurmalıdırlar;

* müşahidəçilər özlərinin müşahidələri barədə mətbuat nümayəndələrinə və ya marağı olan şəxslərə hər hansı fərdi, yaxud vaxtından əvvəl şərh verməkdən qaçmalıdırlar;

* lazım gəldikdə, müşahidəçilər seçkilərdən sonrakı dibrifinqlərdə telefonla, yaxud faks vasitəsilə iştirak etməlidirlər;

* müşahidəçilər dövlətin bütün qanunlarına və qaydalarına riayət etməlidirlər.

Adətən, uzunmüddətli müşahidəyə hazırlıq üçün seçkilərin başlanmasına bir neçə ay qalmış tələbatı qiymətləndirmək üçün nümayəndə heyəti göndərilir. Tələbatı qiymətləndirən nümayəndə heyəti DTİHB-nin seçkilər sahəsində müşavirinin rəhbərliyi və seçkiləri müşahidə edən nümayəndə heyəti başçısının, onun müavininin və əgər həmin vaxtadək həmin şəxslər DTİHB tərəfindən maliyyələşdirilibsə və inzibati məsələlərə görə məsul şəxsin iştirakı ilə hazırlanır. Nümayəndə heyətinin tərkibinə ATƏT PA-nın nümayəndəsi də daxil edilə bilər.

Tələbatı qiymətləndirən nümayəndə heyətinin vəzifəsinə, ilk növbədə, seçki prosesini tənzimləyən qanunvericiliyin ATƏT-in öhdəliklərinə nə dərəcədə uyğun olub-olmadığını yoxlamaq daxildir. Alınan tövsiyələr nəticəsində, qazanılan nailiyyətlər də daxil olmaqla, DTİHB-nin müşahidəçilərdən ibarət nümayəndə heyətinin həmin ölkəyə dair bundan əvvəlki bütün qənaətləri, yaxud ATƏT PA-nın hesabatları nəzərə alınmalıdır.

Həmin nümayəndə heyətləri müşahidə üçün tələbatı və müşahidənin davamiyyətini qiymətləndirir, həmçinin, seçkinin təşkilatçıları, seçki prosesində iştirak edən digər təsisatlarla seçkiqabağı dialoq üçün şərait yaradır.

ATƏT sədri hər hansı bir siyasi xadimi ATƏT-in müşahidəçilərdən ibarət nümayəndə heyətinin qısamüddətli fəaliyyətinə rəhbərlik edən xüsusi əlaqələndirici təyin edə bilər. Belə bir siyasi xadim, adətən, ATƏT PA-nın sədri, yaxud iqtidarda olan sədrlə məsləhətləşmələrdən sonra ATƏT PA-nın irəli sürdüyü ATƏT PA-nın böyük məmuru olur.

Xüsusi əlaqələndirici DTİHB-nin seçkiləri müşahidə edən nümayəndə heyətinin başçısı ilə sıx əməkdaşlıq edilir və onunla birlikdə seçkilər başa çatdıqdan sonra təşkil olunan mətbuat konfransında seçkidən sonrakı ilkin bəyanatı təqdim edir.

Seçkiləri müşahidə edən nümayəndə heyətinin başçısı DTİHB-ni təmsil edir və həm uzunmüddətli, həm də qısamüddətli müşahidəçilərin işini təmin edir. O, bütün müşahidə müddəti ərzində yerli hökumətin səmərəli müşahidə üçün zəruri olan şəraiti necə təşkil etdiyinə cari qiymət verməlidir. DTİHB-nin seçkiləri müşahidə edən nümayəndə heyətinin başçısı, həmçinin, bütün müşahidəçilər tərəfindən DTİHB müşahidəçisinin davranış məcəlləsinə riayət etməsinin təminatına görə məsuliyyət daşıyır.

DTİHB-nin seçkiləri müşahidə edən nümayəndə heyətinin başçısı qısamüddətli müşahidənin həyata keçirilməsində və ilkin bəyanatın təqdim olunmasında ATƏT-in xüsusi əlaqələndiricisi ilə sıx əməkdaşlıq edir.

DTİHB-nin seçkiləri müşahidə edən nümayəndə heyəti başçısının vəzifələri seçkilər üzrə DTİHB Varşava şöbəsinin bilavasitə nəzarəti altında həyata keçirilməlidir., Nümayəndə heyətinin başçısı seçkilərlə bağlı brifinqdə və dibrifinqdə iştirak etmək üçün Varşavadakı DTİHB-yə baş çəkir. O, bütün müşahidə müddəti ərzində DTİHB Varşava ilə əlaqə saxlamalı və əvvəlki tövsiyələrin yerinə yetirilməsi sayəsində qazanılan nailiyyətlər də daxil olmaqla, bütün məsələlər barədə DTİHB-nin seçkilər şöbəsinə həftəlik hesabatlar verməlidir. DTİHB-nin seçkiləri müşahidə edən nümayəndə heyətinin başçısı, həmçinin, yerlərdə ATƏT-in iştirakçı dövlətlərinin səfirlikləri və əgər həmin ölkədə mövcuddursa, ATƏT-in uzunmüddəlli nümayəndəliklərinin işçilərilə məsləhətləşməlidir.

DTİHB-nin ölkədəki əsas tərəfdaşı seçki komissiyası, yaxud seçkilərin təşkilinə görə məsuliyyət daşıyan orqanlardır (sonradan, sadəcə olaraq, milli seçki idarəsi). DTİHB-nin seçkiləri müşahidə edən nümayəndə heyətinin başçısı müvafiq seçki orqanları ilə əlaqə yaratmalı və paytaxtda müvəqqəti büro açmalıdır.

DTİHB-nin seçkiləri müşahidə edən nümayəndə heyətinin başçısı, həmçinin, müvafiq nazirliklərlə, siyasi partiyalarla, qeyri-hökumət təşkilatları ilə (istənilən yerli müşahidəçilər və insan hüquqlarına dair qruplar da daxil olmaqla), digər müvafiq mülki təşkilatlarla və kütləvi informasiya vasitələrilə və milli azlıqlarla (lazım gəldikdə) əlaqəni möhkəmləndirməlidir. Toplanılan informasiya mənbənin razılığı ilə sənədləşdirilməlidir və sonradan yekun hesabatına daxil edilə bilər.

DTİHB-nin seçkiləri müşahidə edən nümayəndə heyətinin başçısı ölkəyə gəldiyi vaxt mətbuat üçün DTİHB-nin uzunmüddətli müşahidə dövründə səlahiyyətləri barədə qısa bəyanatla çıxış etməli və əlaqədar informasiya verməlidir. Əlaqələndirici və müşahidəçilərdən ibarət nümayəndə heyətinin qərəzsizliyini həmişə nəzərə çarpdırmalı və bildirməlidir ki, nümayəndə heyəti seçkilərin təşkili və keçirilməsi, yaxud seçki prosesi ilə bağlı insan hüquqları sahəsində digər məsələlər barədə iradları qəbul etməyə hazırdır.

DTİHB-nin seçkiləri müşahidə edən nümayəndə heyətinin başçısı aşağıdakı tədbirlər vasitəsilə beynəlxalq müşahidəçilərin fəaliyyətinə kömək etməlidir:

*seçki prosedurları və qaydalarına dair, eləcə də, həm uzunmüddətli, həm də qısamüddətli müşahidəçilər üçün seçkilərə aid daha kəskin məsələlər barədə müfəssəl informasiyaların və sənədlərin təqdim olunması;

* uzunmüddətli və qısamüddətli müşahidəçilərin istifadəsi üçün müvafiq yoxlama siyahılarının və formalarının hazırlanması:

* ölkə üzrə informasiya alınmasını tam həcmdə təmin etməli olan müşahidəçilərin yerləşdirilməsinin planlaşdırılması;

* gözlənilən seçkidən sonrakı ilkin bəyanatın və yekun hesabatının əsası kimi seçkidən sonrakı yekun dibrifinqin keçirilməsi.

DTİHB-nin seçkiləri müşahidə edən nümayəndə heyəti başçısının müavini bütün seçki prosesinin davam etdiyi müddət ərzində DTİHB-nin seçkiləri müşahidə edən nümayəndə heyətinin başçısına kömək edir və nümayəndə heyətinin başçısı olmadıqda, onu təmsil edir. Nümayəndə heyəti başçısı müavininin əsas vəzifəsi regionda bölüşdürülmüş uzunmüddətli müşahidəçilərlə müntəzəm əlaqəni möhkəmləndirmək, onların hesabatlarını almaq və təhlil etmək, həmin informasiyanı DTİHB-nin seçkiləri müşahidə edən nümayəndə heyətinin başçısına çatdırmaqdır. Nümayəndə heyəti başçısının müavini, seçkilərin keçirildiyi yerdən yola düşərkən brifinqdə və dibrifinqdə iştirak etmək üçün hökmən Varşavadakı DTİHB-yə baş çəkməlidir.

***Vahid ÖMƏROV,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

## Yazda üz dərisinə qulluq qaydaları

Mövsüm dəyişikliyi zamanı dəridə bir sıra dəyişikliklər baş verir. Ona görə də yazda üz dərisinə qulluq xüsusilə vacibdir, çünki həmin dövrdə dəri daha həssas, zəifləmiş və allergiyaya meyilli olur.

Dərinin təmizliyi çox vacib şərtdir, lazım gəlsə onu gündə iki dəfə - səhər və axşam yuyub təmizləmək lazımdır. Xanımlar qışda istifadə etdikləri ağır tərkibli kremləri daha yüngülləri ilə əvəz edə bilərlər. Yazda dəri çox yağ ifraz etdiyinə görə tərkibi az yağlı olan qulluq vasitələrinə üstünlük verilməlidir. Nəmləndirici kremlə yanaşı, tonikdən də istifadə edilməsi üz dərisinə müsbət təsir göstərir. Qışda istifadə olunmayan günəşdən qoruyucu kremləri yenidən gündəlik makiyaj vasitələri sırasına qaytarmaq olar. Qulluq kremləri kimi makiyaj vasitələri də daha yüngülləri ilə əvəz edilə bilər. Yaz mövsümü pilinq üçün də ən yaxşı vasitədir, çünki yay aylarında həmin prosedurun tətbiq edilməsi məsləhət görülmür.

Üz dərisinin sağlamlığı üçün vacib olan məsələlərdən biri də sudur. Yazda içilən bol su dərini qurumağa qoymur. Yuxu rejimi də dəri üçün çox əhəmiyyətlidir, çünki yuxusuzluq dəriyə solğunluq və şişkinlik verir. Mövsümə uyğun meyvə-tərəvəz yeyilməsi də orqanizmi təmizləyir.

## Qarın piylərinin əridilməsi

Qarın piylərinin əridilməsi normal görünmək istəyən hər kəsin arzusudur və şişman qarın bir sıra xəstəliklərin mənbəyidir. Bu barədə AZƏRTAC-ın müxbiri ilə söhbət edən həkim-fitoterapevt Fizuli Hüseynov deyib: “Piy hüceyrələrinin bölünməsi iki formada olur: ya hüceyrələr iki, sonra dörd yerə bölünməklə artıb çoxalır, ya da hüceyrələr şişərək böyüyürlər. Ayaqda və qolda olan piy hüceyrələri iki yerə bölünərək artan hüceyrələrdir. Həmin hüceyrələr dayaq-hərəkət sisteminin fəaliyyətində iştirak edir və əzələlərə yardım göstərir, qarın piyləri isə şişərək böyüyür. Onlar çox təhlükəlidir və artıq yük kimi əziyyət verir, çünki həmin piylər qarındakı bütün orqanları sıxır və onun normal işləməsinə mane olur”.

Bəs niyə qarın qabağa çıxır və onun böyüməməsi üçün nə etmək lazımdır? Həkim-fitoterapevt həmin sualın cavabında deyib: “Qarın piyləri qarın əzələləri tonusdan düşəndə irəli çıxmağa başlayır. Onun qarşısını almaq üçün, ilk növbədə, hər gün press hərəkəti etmək lazımdır. Bunu etmək üçün əvvəlcə arxası üstə uzanaraq divara və ya çarpayıya bağlanmış ipin köməyi ilə qarın press hərəkəti edilir. Mütəmadi hərəkət edəndə ipə ehtiyac qalmır, hərəkətlər gündə 3 dəfə və hər birində 20 dəfə olmaqla yerinə yetirilir. Qarın hüceyrələri şişib böyüyəndə kip korsetdən istifadə etmək olar”.

Bəs bu sahədə hansı xalq təbabəti reseptlərindən istifadə etmək olar? Xalq təbabəti bilicisi bunun üçün bir neçə resept məsləhət görüb: “100 qram acı bibər qəhvəüyüdəndə toz halına salınır, yarım litr zeytun yağı ilə qarışdırılıb qarına çəkilir və üstündən korsetlə bağlanılır. Dərini yandırmaması üçün əvvəlcə az yağ çəkilir və korset səhərdən axşama qədər çıxarılmır, yatmazdan əvvəl çıxarılır və dəri yuyulur. Hərəkət edilərkən fəal həyat tərzi yaşamaq və gündə 5 kilometrdən artıq gəzmək lazımdır. Prosedur zamanı həftədə bir dəfə qarın diametri ölçülür. Bağırsaq mənşəli köpmə də ola bilər. Bağırsaqların hərəki fəallığı azalanda sürətli addımlarla gəzmək lazımdır. Gündə 5 kilometr hərəkət bağırsaqları işləməyə məcbur edir və tərkibində efirli birləşmələr olan dərman bitkiləri də bağırsaqların hərəki fəaliyyətini artırır.

Başqa bir reseptdən də istifadə etmək olar. Hərəsindən 100 qram cirə, razyana, qaraqınıq, pişikotu və kəcəvər bitkiləri qarışdırılır, qarışıqdan 2 xörək qaşığı 3 stəkan suda dəmlənir, hər dəfə yeməkdən əvvəl 1 stəkan içilir.

## ELAN

Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən Nərimanov rayonu, Aşıq Molla Cümə küçəsi, ev 15, mənzil 26 üçün verilmiş Kərimova Ülviyyə Kamal qızına məxsus № 032472 nömrəli order itdiyi üçün etibarsız sayılır.

***

Bakı Şəhər Texniki İnventarlaşdırma Bürosu tərəfindən Əsədov Fəqani Sabir oğluna (ünvan : Nizami rayon , Əli Vəliyev küç b11, mənzil 11) verilmiş küpçə itdiyi üçün etibarsız sayılır.

## Taekvondoçularımız “Ukrayna Open” beynəlxalq turnirində 10 medal qazanıblar




Taekvondo üzrə “Ukrayna Open” beynəlxalq turnirə yekun vurulub. AZƏRTAC xəbər verir ki, 23 idmançı ilə G1 kateqoriyalı yarışa qatılan böyüklərdən ibarət milli komandamız 3 qızıl, 1 gümüş və 6 bürünc medal qazanıb. Turnirin ilk günü Qaşım Maqomedov (58 kq) yarışın qalibi, Məcid Sofiyev (54 kq) və Şəms Həsənova (62 kq) isə bürünc medala sahib olublar.

Yarışın sonuncu günü də millimiz üçün uğurlu olub. Komandamızın yeddi üzvü fəxri kürsüyə qalxıb. Qadın taekvondoçularımızdan Fəridə Əzizova (67 kq) və Patimat Abakarova (53 kq) yarışı qızıl medalla başa vurublar. Radik İsaev (87 kq-dan yuxarı) isə həlledici döyüşdə məğlub olaraq gümüş medalla kifayətlənib. Millinin digər üzvlərindən Məhəmməd Məmmədov (68 kq), Ramin Əzizov (87 kq), Rufina Əlizadə (53 kq) və Elvarə Cəlilova (73 kq-dan yuxarı) bürünc medal qazanıblar.




*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**